HÜSEYNBALA MİRƏLƏMOV

# L Ə Y A Q Ə T

**(İki hissəli pyes)**

Faşist Almaniyası üzərində qələbənin 60 illiyinə həsr olunur

İ ş t i r a k ç ı l a r:

| | |
|---|---|
| Ümid | Zabit |
| Nahidə | Kolya |
| Mirkərim ağa | Sanitar |
| Fatma | Yaralı əsgər |
| Nahid | Yaşlı əsgər |
| Ziyad | Qadın |
| Şeydabəy | Tibb bacısı |

*Hadisələr 1941-1948-ci illərdə cərəyan edir.*

## P R O L O Q

*Böyük pərdə açılır. Bir tərəfdə Böyük Vətən Müharibəsinin şüarı olan «Ana Vətən çağırır» plakatı qoyulub, digər tərəfdə «Qələbə ordeni» çəkilmiş kiçik bağlı pərdə görünür.*

*Müharibə dövrünün səfərbəyliyə çağırış mahnısı səslənir. Tamaşanın bütün iştirakçıları səhnəyə gəlib kiçik pərdənin qarşısında dayanırlar. Əllərində qırmızı qərənfillər var.*

*Musiqi fona çevrilir, aktyorlar kiçik pərdənin mərkəzi hissəsində projektorla gür işıqlandırılan Heydər Əliyevin portretinə baxırlar. Fonoqramma ilə mətn səslənir.*

Mətn.

İkinci Dünya Müharibəsinin, Böyük Vətən Müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.

Heydər ƏLİYEV

*Musiqi güclənir. Aktyorlar gedir. Kiçik pərdə qalxır. Musiqi hələ bir neçə an da davam edir.*

## BİRİNCİ HİSSƏ

K*ürsülü kənd evi. Evin artırmasından həyətə açılan dörd-beş pilləli pilləkən. Həyətdə ağacdan düzəldilmiş sadə skamya və stol var. Həyətin yuxarı üstü artıq yarpaqları saralmaqda olan üzüm talvarı ilə kölgələnir. Hiss olunur ki, payızın birinci ayıdır.*

N a h i d ə *(Deyinə-deyinə gəlir).* Dava təzə başlayıb, hər şey qəhətə çıxıb. Nə nöyüt var, nə duz, nə də spişka. Yaxşı ki, Ağagil ehtiyatlıdır. *(Eyvana çıxıb nöyüt lampasını mıxdan çıxarır, kibriti çəkib çırağı yandırır.)* Vurğunu güclü gəlmiş nemes də qıra-qıra gəlir. *(Eyvandan harasa boylanır)* Umud harda qaldı?

Z i y a d *(Səsi gəlir).* Umud! Umud! Ay Umud, hey!

N a h i d ə *(Təşvişlə).* Mürdəşir yumuşun səsidi. Xeyrə gəlməz. Görəsən hansı lo xəbərlə gəlib?

Z i y a d *(Səsi yaxınlaşır*). Umud, ay Umud!

N a h i d ə. Bu niyə bağırır? *(Astadan)* Səsin görüm o dünyadan gəlsin!

Z i y a d *(Gəlir).* Nahidə, axşamın xeyir!

H a h i d ə. Axşamın xeyir!

Z i y a d. Niyə hay vermirsən, az? Umud hanı?

N a h i d ə *(Narahatdır)*. Nə bilim, işdə olar də. Xeyirdimi?

Z i y a d. Az, əvvəl adama, «xoş gəlmisən» deyərlər. Bəs Fatma xala hanı?

N a h i d ə. Ağagildədi, indi gələcək, evdə heç kəs yoxdu.

Z i y a d. Deməli, təksən?

N a h i d ə. Tək niyə oluram?

Z i y a d. Ayrı adamınız da var?

N a h i d ə. Nə demək istəyirsən, Ziyad? Bu dediklərinin axı mətləbə nə dəxli?

Z i y a d. Nədi, urusca danışıram? Umud yoxdu, Fatma arvad yoxdu, deməli, təksən də *(səsini süni surətdə yumşaldır)*, qadası...

N a h i d ə. Allahı olan bəndə heç vaxt tək olmur. Onun nəzəri həmişə üstümüzdədi.

Z i y a d. Sən də uydun Mirkərim kişinin sayıqlamalarına? Heyf, səndən, gül kimi ömrünü belə çürütdün, zay elədin.

N a h i d ə. Ağsaqqal kişini bihörmət eləmə, Ziyad, sözün var, söz de, yoxdusa, get, kişi olmayan evə yad kişinin təşrif gətirməyi şəriətdə günahdır!

Z i y a d. Bəs qəlb qırmaq nəətərdi, günah döyül, hə...

N a h i d ə. Ziyad, mane olma, mən ocax qalamalıyam.

Z i y a d. Hə, yeri ocax qala, paltar yu, kəhrizdən su daşı. Niyə Tanrına təpik atdın? Niyə aldandın Umudun diplomuna, ağ xalatına.

Mirkərim kişinin sayıqlamalarına? Allah belə, Tanrı heylə, qismət böylə. Bəyənmədin bizim ikimərtəbəli imarətimizi. İndi çək, cəzandı.

N a h i d ə. Ziyad, axı sən Umuda dost deyirsən, üzünə gülürsən? Sən istədin, mən istəmədim, vəssalam də. Qurtardı, getdi. Deyirsən hər şeyi açım Umuda danışım, biabır eləyim səni, el içində rüsvay olasan? Niyə başa düşmürsən ki, mən ərdəyəm.

Z i y a d. Bəs ərin olmasa, onda necə?

N a h i d ə. Nə demək istəyirsən, Ziyad? Saman altan su yeritmə, ürəyim üzüldü. Niyə mənim... *(Şübhə ilə)* Umudu neynirsən axı, bu şər vaxtı?

Z i y a d. Heeç, yağlı bir kağız var ona, şəxsən özünə çatasıdı.

N a h i d ə. Nə kağızdı, elə Ziyad?

Z i y a d. Sənlik deyil, özünə verməliyəm. Qol çəkib götürməlidi.

N a h i d ə. Ziyad, niyə məni qorxudursan, nə kağızdı axı?

Z i y a d. Kağızdı də! Kağızın nəyindən qorxursan, canavar deyil parçalasın, ilan deyil çalsın...

N a h i d ə. Hamı səndən qorxur, Ziyad.

Z i y a d. Məndən? Mən kiməm ki, məndən qorxalar, paçtalyonam də, kənd poçtunun dilsiz-ağızsız müdiri, fağır Ziyad yoldaş. Sovet sədri mən deyiləm ki, məndən qorxalar, dayımdı, ondan qorxun, milis də əlində, divan da, peçat da. Frontdan qaçanların da ki, qənimidi kişi.

N a h i d ə. Bizim kənddə frontdan qaçan var?

Z i y a d. Var, niyə yoxdu, hamısı da dayıma məlumdu.

N a h i d ə. Belə məlumdusa, dayının o iti gözləri səni niyə görmür?

Z i y a d. Nahidə, sataşırsan a, mənə? Əvvəla, öz işinə qarış, dağ boyda ispalkomun adını hərzə-hərzə hallandırma. İkincisi, bilmirsən ki, mənim ayaqlarım şikəstdi, altı yastıdı?

N a h i d ə. Eybi yox, gedərsən, inşallah, orda tez düzəldərlər. *(Üzünü yana çevirib astadan)* Qozbeli qəbir düzəldən kimi.

Z i y a d. Elə onda da məni istəmədin ki, əsgər getməyən adam mənə tay deyil, neqodnıdı, nə bilim nədi. Adıma olmazın söz çıxartdın.

N a h i d ə. Yaxşı, yaxşı day keçdi, palan içi tökmə, özün də yeri çıx get, kağızı da səhər aparıb xəstəxanada verərsən Umuda, indi arvad gəlib çıxar, qorxar.

Z i y a d. Nədən qorxar, az? Niyə qorxur, mən adamyeyənəm? Yesəm, yetmiş yaşında arvadı neynirəm, elə səni...

N a h i d ə. Ziyad! *(Onu itələyə-itələyə qapıya sarı aparır)* Rədd ol, burdan. Özünü axmaqlığa qoyma. Tez-tez, arsızlıq eləmə, yekə kişisən.

Z i y a d *(Əlindən çıxır.)* Az, bir dayan görüm, ey. Bu camaat niyə qorxur məndən? Məgər buynuzum-zadım var?

N a h i d ə. Bilmirsən, niyə qorxurlar? Əsgər ailələrinə qara kağızı, ölüm-itim xəbərini sən gətirmirsən, bəs kim gətirir?

Z i y a d. Pah dədeyin evi yıxılsın! Nə qədirbilməz millətdi, ə, bunlar!Yaxşılıq eləyirsən, pis başa düşürlər, pislik eləmirsən, diş qıcadırlar.

N a h i d ə. Nədi, qaraxəbər deyilsən? Sən gətirmirsən qorxunc kağızları?

Z i y a d. Lap elədi, tutaq ki, mən gətirirəm. Bəs nə istəyirsən, balaca uşaqları qara kağızla göndərim evlərə? Belə məsuliyyətli işi ağızından süd qoxusu gələn cocuğa tapşırım? Davadı, qara xəbər də olar, ölən də, itən də. Bunun taqsırı məndə deyil ki, kağızı mən yazmıram ha?

N a h i d ə *(Hərəkətindən peşmançılıq çəkir).* Bəs o nə kağızdı?

Z i y a d. Nə kağız? Eh, Nahidə, Nahidə, məndə çox kağız var. Poçt müdirinin hər şeyi kağızdı də. Cibləri də, qoltuqlarının altı da, ayaqqabılarının içi də. Məktub məktub dalınca gəlir.

N a h i d ə. Ziyad, sən yaxşı bilirsən ki, mən Umuda gələn kağızı soruşuram.

Z i y a d. Onu Umudun özünə verməliyəm, əlbəəl. Gedim, bir azdan gələrəm, çünki kağız vacib kağızdı. Bu gün verməliyəm, vaxtı-vədəsi var. *(Gedir.)*

N a h i d ə *(Rəngi-ruhu qaçıb)*. Evim yıxıldı!.. *(Skamyaya oturur)* Pavestkadı!..Yaxşı şey olsaydı, başıbatmış Ziyad elə sevinməzdi. *(Əlləri ilə üzünü tutur.)* Pərvərdigara, sən özün bizi peşman eləmə!.. *(Əlləri ilə qarnını tutur.)* Balamı yetim qoyma!..

*Həzin və qəmli musiqi eşidilir. Uzaqdan Səlbinin bayatısı eşidilir.*

S ə l b i *(Səsi)*.

Mən aşiq, qəm daşıyam,
Od vurdum, qəm daşı, yan.
Kimsə olmaz mənim tək-
Dərd çəkib, qəm daşıyan.

N a h i d ə. Yazıq Səlbi arvad, oğlunun qara xəbərini alandan yerə-göyə sığmır. Elə oğlu gəzən yolları, bağ-bağçanı dolaşır, bayatı çəkir, ağı deyir, fəryadı dilsiz-ağızsız daşları da ağladır, naləsi ürək parçalayır. İlahi, sən bizi bəlalardan hifz elə, bizi Mirkərim ağanın cəddinə bağışla! İndi-indi gün görürəm, söndürmə çırağımı! Dedilər ana laylası baldan şirindi, dadmadım, ata, qardaş ürəyə təpərdir, görmədim. Şükür sənə Allahım, axır ki, dadıma çatdın, bəndələrinin əliylə, Mirkərim ağanın, Fatma nənənin boynumda olan haqqı-sayı çoxdur. O yazıq arvad da bir gün görməyib, cavan yaşında ərini, sonra cavanca oğlunu, gəlinini itirib, yeganə təsəlli yeri Umud olub. Zülmət gecəyə bənzər ömrümə nurlu işıq səpən Umud. İlahi, sən bizi nagüman eləmə, səni and verirəm varlığına! Ya şər vaxtının sahibi, sayəni üstümüzdən əskik eləmə!

F a t m a *(Gəlir)*. Nədi, a bala, nə yaman dua eləyirsən, Nahidə, Umud nənəsi ölmüş gəlməyib hələ?

N a h i d ə. Nənə! *(Ağlayıb arvadı qucaqlayır).*

F a t m a. Nədi, ağız, noolub, bu ağlamaq nədi, Allaha ağır gedər, şər vaxtıdı, şeytanın adamı aldadan çağıdı.

N a h i d ə. Nənə, Ziyad kağız gətirmişdi Umuda.

F a t m a. Bıy iraq olsun! Hanı, nə kağızdı heylə?

N a h i d ə. Vermədi, dedi, əlbəəl özünə çatdırmalıyam, vacib kağızdı.

F a t m a. Deyirsən birdən gədəni davaya çağırarlar? Nə deyirsən?

N a h i d ə. Yox, nənə, onun bıronu var. Axı burda da həkim lazımdı. Ağlım kəsmir.

F a t m a. Allah ağzından eşitsin, ay bala, Umudu aparsalar, bil ki, dəli olub çöllərə düşəcəm, lap elə Səlbi kimi.

N a h i d ə. Allah eləməsin, nənə!

F a t m a. Bəs özü hanı? Bu vaxtacan gərək gəlmiş olaydı, nənəsi ölmüş.

N a h i d ə *(Eyvana boylanır və qeyri-iradi)*. Umud! Gəlir, nənə, Umuddu. Ödey, gəlir, özüdü.

F a t m a. Çox şükür! Bala, yadında saxla, qulağında sırğa elə! Halal adamın sözünü danışanda çıxır böyürdən.

N a h i d ə. Ağanın sözüdü, nənə.

F a t m a. Hə, hə, ceddinə qurban olduğum Mirkərim ağanın ağzının sözüdü. Allah onu bu kəndə, bu el-obaya çox görməsin. Eyzən hikmətdi, ağzından dürr tökülür, cəvahirat yağır kişinin.

N a h i d ə. Nənə, axı Mirkərim ağa Nəcəfdə dərs alıb. Ərəbcəni ərəbdən yaxşı danışır, Quranı da başdan-ayağa əzbər bilir. Bəs niyə o boyda kişiyə qədir-qiymət qoymurlar?

F a t m a. Neynəsin, Quranı görəndə bu hökumətin başına daş düşür. Elə bil cin-şəyatin, iynə-sap görür.

N a h i d ə. Nənə, yavaş danış, eşidən olar.

F a t m a *(Pıçıldayır)*. Yazıq kişi o müqəddəs kitabı gecələr xəlvət oxuyurdu. Yaxşı ki, indi daban-dabana izləmirlər, güdmürlər. Bu dava yumşaldıb havanı. Dur, ağız, nişanlının qabağına çıx, kişi xoşlayır, arvad qabağına çıxanda. Dur, əlli ol.

Ü m i d *(Gəlir. Əlində həkim çantası var).* Axşamınız xeyir, nənə, nəətərsən? Canın-başın ağrımır ki?

F a t m a. Yaxşıyam, nənən qadanı alsın! Hardasan, ac-susuz, gecə də düşdü, gəlib çıxmaq bilmirsən?

Ü m i d. İşim çoxuydu, nənə, qonşu kənddən bir xəstə gətirmişdilər, tutub o dünyadan qaytardıq. Şükür ki, üzü bəriymiş. Sizə nə olub? Nahidə, birtəhərsən? (*Pıçıldayır.)* Ürəyin bulanır?

N a h i d ə *(Gülümsəyir).* Yox, yaxşıyam. Ziyad gəlmişdi.

F a t m a. Nə pıçıldaşırsınız orda?

Ü m i d. Ay nənə, qoy görək, bircə dəqiqə də.

F a t m a *(Gülə-gülə).* Bildim, bala, bildim: atadan-anadan yar şirin olar, olar. Heylədimi, ə, nənə qurban?

Ü m i d. Yaxşısını sən bilirsən, ay nənə, dünya görmüsən, necə deyərlər, stajın var.

F a t m a. Ay qırışmal, mənim qalxozda istajım çoxdu, sən deyən işlərdən xəbərim yoxdu, rəhmətlik baban qərəl tutmadı bu dünyada *(Əliylə qəbiristanlıq tərəfi göstərir.)* tələsdi ora. Nətəər deyərlər, dünyanı çox yaşıyan yox, çox gəzən yaxşı bilər.

Ü m i d. Nətəhər yəni, çox gəzən, nənə? Nə demək istəyirsən?

F a t m a. Ə, günaha batırma məni, danışdırma bu gəlinin yanında, pərdə saxla, pıçıldaşma, mənim yanımda.

N a h i d ə. Ziyadın gəlməyini deyirdim, nənə.

Ü m i d. Gəlib, gəlib də. Ziyadın həmişə gəldiyi evdi də, dost deyilik? Nə deyirdi, axı, hamınız təşvişə düşmüsüz?

N a h i d ə. Sən Allah, sən dədəmin goru, ətimi tökmə, Umud. Dost, yox bir... Deyəsən nəsə bir kağız gətirib sənə, vermədi, dedi, gərək Umudun özünə verəm.

Ü m i d. Ona görə belə tutulmusan, Nahidə? Poçtalyon kağız gətirər də. Bəs hara getdi, niyə gözləmədi məni?

F a t m a. Sən əl-üzünü yu. İndi bir uşaq göndərrəm, haylıyar onu.

Ü m i d. Sən niyə, ay nənə? Biz qırılmışıq?

F a t m a. Sən işində ol, dedim, əl-üzünə bir su vur, irahatdan, çay iç, elə çölə çıxmaq istəyirəm. *(Gedir.)*

Ü m i d. Nahidə, niyə belə duruxub qalmısan? Ərinə xoş üz göstər, bir çay gətir, gülümsə. *(Yaxınlaşıb qucaqlayır.)* Mənim qəşəng, maralım, bənövşə ətirli gözəlim. Sənə qüssə yaraşmır...

N a h i d ə. Burax, Umud, arvad içəri girər, biabır olarıq. Üzümüzün suyu tökülər.

Ü m i d. Nənəmiz arif adamdı, hər şeyin yerini biləndi. *(Öpür.)* Bir gülümsə, mənim də könlüm açılsın, yorğunluğum çıxsın.

N a h i d ə. Yaxşı, yaxşı, Ziyadı döyən yox, söyən yox, dost da olsanız, sən onu hələ yaxşı tanımırsan.

Ü m i d. Yaxşı, qurtaraq bu söhbəti, eşidən olar, ayıbdı.

N a h i d ə (Ona sıxılır). O nə kağız olar, Umud? Bəlkə pavestkadı? Birdən səni apararlar, Umud. Onda mən başıma haranın daşını tökəcəm?

Ü m i d. Bəsdi, Nahidə, məgər mən gedənlərdən artığam, ya əskiyəm? Bəlkə davanı kişilər yox, arvadlar eləməlidir? Yaylıq bağlamalıyam başıma?

N a h i d ə *(Gözləri qaralır)*. Nə danışdığındı, Umud, nə demək istəyirsən? Yoxsa sənin xəbərin var, o kağızdan?

Ü m i d. Xəbərim yoxdu, kağızdı də, ya səhiyyə şöbəsindəndi, rayondan, ya da...

N a h i d ə. Umud!

Ü m i d. Başa düş, canım-gözüm, davadı, hər şey ola bilər, məni də apara bilərlər. Bu çox təbii bir hadisədi, amma gəl sabahın dərdini indidən çəkməyək. Toxtaq olaq, sənə ağlayıb-sızlamaq, dərd çəkmək yaraşmaz, sən onu düşün. *(Ehmalca onun qarnına əl sürtür.)* Nənəmə demisən?

N a h i d ə. Yox, hələ deməmişəm, amma çoxbilmişlik eləyir, üzə vurmasa da, o, hər şeyi bilir. Guya arvadın xəbəri yoxdur. Di, burax, çay gətirim sənə. *(Gedir.)*

Ü m i d. Yəqin ki, hərbi komissarlıqdandır, axır ki, ərizəmə cavab verdilər. Deməli, yığışmaq vaxtıdır.

N a h i d ə *(Padnosda çay gətirir).* Deyirəm, Umud, nə yaxşı ki, yayda xeyli tut qurutmuşduq, maşallah, elə də yaxşı çıxıb, kəhrəba dənələri kimi sapsarıdı, hələ tut irçalını demirəm. Gəl otur.

Ü m i d. Nahidə, mənim xallı gözəlim. *(Oturur.)* Gəl yanıma, yaxına gəl. *(Əlindən tutub yanında otuzdurur.)*

N a h i d ə. İndi nənəm gələr, Umud.

Ü m i d. Bu dünyada hər kəs üçün qiymətli adamlar, müqəddəs adlar olur. Bizim üçün də elə insanlar, adlar var. İtirdiklərimiz də var, vaxtsız-vədəsiz. Talelərimiz də bir-birinə oxşayır, sən də yetimçilik görmüsən, mən də. Bəlkə elə ona görə Allah bizi qovuşdurdu. Budu, beş aydı biz bir yerdəyik. İndi mənim qəlbimə əbədi həkk olunan adlar içərisində sənin də adın var, Nahidə, mənim xallı maralım.

N a h i d ə. Bəs o biri adlar hansılardır?

Ü m i d. Sən bilirsən, Nahidə, hər şeyi bilirsən. Üstündə doğulduğum, böyüdüyüm Vətən, məni dünyaya gətirən atam-anam, məni zülümlə böyüdən, oxudan, həkim eləyən nənəm Fatma, bir də sənin əbədi məhəbbətin.

N a h i d ə. Umud, sən bunları niyə dilə gətirirsən, niyə belə kövrəlirsən?

Ü m i d. İstəyirəm məni bu dünyaya, həyata bağlayan adlar çoxalsın*. (Əlini Nahidənin qarnına toxundurur.)* Bir, beş, altı, yeddi...

N a h i d ə *(Əlilə onun ağzını qapayır)*. Allah niyyətini versin, Umud! Mən hər gün Allaha dua eləyirəm namaz üstə. O mənim səsimi eşidir.

Ü m i d. Gəl bu söhbəti təzələməyək, Mirkərim ağa necə deyir? Dində məcburiyyət yoxdur.

N a h i d ə. Allah özü qəlbinə nurunu salsın, Umud.

Ü m i d. Məni sözümdən yayındırdın. Bir, beş, altı, yeddi...

N a h i d ə. Səbrli ol, Allah biləni biz bilmirik.

Ü m i d. Nə qalıb ki, papağını fırlat, gördün qaragözlü, ağ bənizli, anası kimi qara xallı bir qız... Bəlkə oğlan?

N a h i d ə. Yenə Allah bilən məsləhətdi.

Ü m i d. Yaxşı, onda gəl şərti şumda kəsək, xırmanda yabalaşmayaq. Oğlan olsa, Nahid, qız olsa, Ümidə qoyaq adını.

N a h i d ə. Sən necə istəsən, elə də olacaq. Sağlıq olsun, dava qurtarsın, nemesin beli qırılsın, lənətə gəlsin.

Ü m i d. Dava uzanacaq, Nahidə, bu xamır çox su aparacaq.

N a h i d ə. Hər şey Allahın əlindədir. Tanrıdan diləyim budur ki, balanın balası sənə baba desin, inşallah. *(Boynunu qucaqlayır.)* Bir dəfə Mirkərim ağa dedi ki, qızım, insan ömrü ilin fəsilləri kimidir: uşaqlıq, gənclik, yetkinlik və qocalıq. Allah ömrümün fəsillərini sənsiz eləməsin, Umud. *(Ağlamsınır.)*

Ü m i d *(Kefi pozulur).* Eh, bu ağlamağa nə ad verək? Bu nə göz yaşlarıdır? Biz həmişə bir yerdə olacayıq. Harda oluramsa olum, sən mənim yanımdasan, həmişə də mənimlə bir olacaqsan. Sil

gözüyün yaşını, qaragilə, ağlama, bəsdi. *(Boynunu qucaqlayır. Əllərilə göz yaşlarını təmizləyir.)*

N a h i d ə. Hə, deyəsən, gələn var. *(Cəld ayağa qalxır və qapıya yaxınlaşır.)*

Ü m i d. Kimdi? Nənəmdi?

*Fatma və Ziyad gəlirlər. Nahidə kor-peşiman qırağa çəkilir.*

Z i y a d. Axşamınız xeyir, Umud, ə, qardaş, hardasan? Sən atlı, mən piyada, axtarıram səni.

Ü m i d. Harda olacam, papağımın altında, görünür yaxşı axtarmamısan.

*Ümidlə Ziyad görüşürlər.*

Z i y a d. Ə, zarafatsız, sözüm var ey.

Ü m i d. Ağır xəstə varıydı Seyidlidə, üstünə getmişdim, yazığı yarı yoldan qaytardım, geri - bu dünyaya. Hələ ömrü varıymış, anası namaz üstəymiş. Sən necəsən, özgə məktublarını oxumursan?

Z i y a d. Mən mədəni adamam, Umud, heylə mədəniyyətsiz iş tutmaram. *(Qəhqəhə çəkib gülür.)* Qardaş canı...

Ü m i d. Nahidə, çayımız varmı?

Z i y a d. Sən öl, içən deyiləm, Nahidə, ehtiyac yoxdu.

Ü m i d. Az, çay gətir, qulaq asma, mən deyəni eşit.

Z i y a d *(Səsinə həlimlik qatır*). Umud, qadası, sənə çatacaq bir kağız var. *(Pıçıldayır.)* Bəlkə, ikilikdə söhbət eləyək, qardaş?

Ü m i d. Məktubdur, çağırış?

F a t m a. Allah, sən saxla!

Z i y a d. Elə kağızdır ki, gərək... *(Dili topuq çalır.)*

F a t m a. Ziyad, ürəyinə xal düşməsin, ciyarıma xal düşdü. Ver dayna, o zəhrimarı. Bu nə örtülü məzələnməkdi. Bilmirsən, örtülü bazar, dostluğu pozar?

*Nahidə çay gətirir.*

Ü m i d. Hə, nə kağızdı?

Z i y a d *(Süni surətdə ah çəkir).* Qardaş, dilim gəlmir, pavestkadı, çağırış!

N a h i d ə. Ah! *(Əlindən çay qarışıq stəkan düşür.)*

F a t m a. Evim yıxıldı! *(Əllərini dizlərinə çırpır.)*

Ü m i d. Bəsdirin! Qurtarın, bu vay-şivəni!

N a h i d ə. Nənə!

F a t m a. Can bala!

*Hər iki qadın nəfəs-nəfəsə qucaqlaşıb ağlayır.*

Z i y a d. Mənim işim budu, anam-bacım. Mən neyləməliyəm?

Ü m i d. Dedim, qurtarın, ağlaşmanı. Çaya su gəlməmiş çırmanırsınız! *(Kağız açır.)* Bəli, hərbi komissarlıqdandır. Mən cəbhəyə yola düşməliyəm, hamı kimi , başına papaq qoyan hər bir kişi kimi. Burda özgə nə var ki? (Qadınlar daha bərk ağlayırlar.)

Z i y a d *(Mexaniki şəkildə əl atıb papağını çıxarır və birdən hərəkətinin yersiz olduğunu anlayır)*. Bu gün yaman istidi.

Ü m i d. Nənə, davaya gedənlər məndən əskikdirlər? Yoxsa onların arvad-uşağı, anaları, nənələri yoxdur, canları adam canı deyil? Yoxsa onların bir yox, on iki canı var? Səlbi arvadın oğlundan, Şəmildən artığam mən? Yumruğu ilə kəl aşırırdı.

N a h i d ə. Axı sənin bıronun var, Umud.

Ü m i d. Nahidə, sən məni hamıdan yaxşı tanıyırsan. Axı bir az əvvəl dedim sənə, mənə əziz olan adlar haqqında. O sözlərin içində Vətən birinci yerdə dayanır. Əlbəttə, mənim icazəm , bronum varıydı, amma özüm ərizə vermişdim. On beş günüyüdü intizarla gözləyirdim bu kağızı.

Z i y a d. Könüllü ərizə vermişdin, Umud?

F a t m a. Ə, bəs bizi kimin umuduna qoyub gedirsən, a namərd balası? Yoldaşın da... (*Sözünü deyə bilmir, yarımçıq qoyur, hıçqırır.)*

*Nahidə bərkdən hönkürür.*

Ü m i d. Ağlamaqdansa, yola tədarükü görün. Səhər o başdan getməliyəm, yoxsa çata bilmərəm.

F a t m a *(Nahidəni qucaqlayır)*. Sakit ol, bala, toxta, rəhmətlik atası da beləydi, höcətliydi. Hazırlıq görmək lazımdı. Palaza bürün, elnən sürün, deyiblər. Neynəməli, kənddə kişi qalmayıb, qalanlar da şil-şikəstlərdi.

*Nahidə daha bərkdən hönkürür.*

Ü m i d. İndi nə deyirsiniz, mən də sizə qoşulum ağlayım, hönkürtü çalım?

N a h i d ə. Özümlə bacarmıram. *(Qaçaraq gedir).*

Z i y a d. Nahidə çox narahatdır.

F a t m a. Narahat olmasın, neyləsin, əri davaya gedən arvad güləsi ha deyil. Sən də, Ziyad, çıx get görək, neyləyirik, üzün ağ olsun, yaxşı xəbər gətirdin, bu şər vaxtı, sağ ol.

Ü m i d. Nənə, Ziyad neyləsin?

Z i y a d. Görürsən, Umud? Bunu tək sənin yox ey, mənim də nənəm Fatma arvad deyir. Allah görür də, mənim nə taqsırım var, axı?

F a t m a. Şit-şit irişmə, birçəyinə xına yaxan Qəmzə nənəndi. Dedim yeri çıx get, əl-ayağım sənə dəyməmiş. Camaat saç ağardır, qara bağlayır, bunun arsız nənəsi xına yaxır... Nəhlət sənə şeytan!

Ü m i d. Ziyad, nənəm hirslənib, xatası çıxar, indi get, sabah gələrsən, yola düşməzdən əvvəl görüşərik, xudahafizləşərik.

Z i y a d. Umud, sən mənə qardaş əvəzisən, mən neyləyə bilərəm?

Ü m i d. Yaxşı. Yaxşı. *(Qucaqlaşırlar.)*

Z i y a d. Allaha kəssin mənim işimi! *(Gedir.)*

F a t m a. Heç qızmadı də bu gədəyə ürəyim.

Ü m i d. Nənə, bəsdi də, xətrinə dəyir axı. Mən də bilirəm, sürüşkən adamdı, başqasının ayağının altını qazıyandı, naqis cəhətləri çoxdu, amma uşaqlıqdan bir yerdəyik, dostuq də.

F a t m a. Allah səni belə dostluqdan qorusun, bala. Gedim görüm, nə var-nə yox. *(Gedir.)*

Ü m i d. Sabahı gözləyək, hər günün öz hökmü var.

*İşıq azalır. Ulduzlu, mülayim gecə. Səhnə bir müddət boş qalır. Uzaqdan Səlbi arvadın həzin, ürək dağlayan ağısı eşidilir.*

S ə l b i.
Mən aşiq, qəm daşıyan,
Od vurdum, qəm daşı, yan.
Kimsə olmaz mənimtək,
Dərd çəkib, qəm daşıyan...

*Səsi uzaqlaşır. Sanki eşidilməz olur. Nahidə gəlir. Əynində uzun paltar, başında şal var. Səhnənin dibində üzü qibləyə namazgahı açır.*

N a h i d ə *(Namaza başlayır, ara-sıra kəlmələr eşidilir, itir).* Bismillahir rəhmanirr rəhim...

*Namazı fon kimi həzin musiqi müşayiət edir. Namaz bitir, Nahidə əllərini göyə açıb dua edir. Ağ alt köynəyində, çiynində pencək Ümid dəlir. Ulduzlara baxır. Nahidəni namaz üstə görüb, dayanır.*

N a h i d ə. İlahi, sən mənim hələ dünyaya göz açmamış balamı atasız qoyma, ona da mənim kimi yetimçilik nəsib eləmə. Pərvərdigara, sən məni Umudsuz və ümidsiz qoyma! Onun çətin yolunu asan elə, onu öz sayəndən əskik eləmə! Qoru onu, hifz elə, arzularını, istəklərini heçə-puça çıxarma, sən böyüksən, sən adilsən, yetimin, əlsiz-ayaqsızın pənahısan, ya rəbil-ələmin! Mənə də rəhm elə,yazığam, mərhəmətini məndən əsirgəmə!.. *(Kövrəlir.)* Rəhm elə, bağışla, mənim göz yaşlarıma! *(Qalxır namazgahı yığışdırır və getmək istəyəndə Ümidi görür.)* Umud, burdasan, niyə yatmırsan, axı sabah yola çıxırsan?..

Ü m i d *(Ona yaxınlaşır)*. Yata bilmirəm, gözümə yuxu getmir. Elə bil hər kirpiyimdən bir batman ağırlığında daş asılıb. Hara gedirsən? *(Əlindən tutur.)* Getmə, gəl otur yanımda.

N a h i d ə. Heç inana bilmirəm ki, sabah bu vaxtlar sən hardasa uzaqlarda olacaqsan, nə əlim yetəcək sənə, nə ünim çatacaq?

Ü m i d *(Onun yaylığını başından ehmalca açır).* Sən mənim xoşuma bax, belə gəlirsən, başı açıq: xurmayı saçlarının rəngini, gur şəlaləyə bənzər əzəmətini yaxından görmək istəyirəm.

N a h i d ə. Söz ver ki, hər gün mənə məktub yazacaqsan, hər gün.

Ü m i d *(Gülərək).* Bəs nemeslə kim vuruşacaq, ay dəli?

N a h i d ə. Demirəm ki, uzun-uzadı yaz doldur varaqları, bircə kəlmə, bircə cümlə. Bilim ki, sağ-salamatsan, yerin-yurdun hardadı, ayın-arxayın olum səndən.

Ü m i d *(Onu qucaqlayır).* Söz verirəm, hər gün məktub yazacam, yaralılardan baş açan kimi yazacağam.

N a h i d ə. Niyə bizim qismətimizə düşdü bu dava, Umud, niyə bizim xoşbaxtlığımızın ömrü belə qısa oldu?

Ü m i d *(Üzünü göyə tutur).* Sən gərək bu sualları namaz üstündə, o kişidən xəbər alaydın. Yaxşısını o bilir. Biz nəkarəyik, gözümün işığı?

N a h i d ə. Qurban olum, elə danışma, küfr demə, yol üstədəsən. Mən hər gün namaz üstdə onsuz da sənə dua eləyəcəm, Allahdan təvəqqe eliyəcəm ki, səni mənim əlimdən almasın.

Ü m i d. Sən dua elə ki, qələbə bizim olsun, düşmən geri çəkilsin, su durulsun, şəhərlərimizi- kəndlərimizi xaraba qoymasın. Onda mən də qələbə ilə qayıdacam, gəlib görəcəm ki, uşağımız ayaq tutub yeriyir, onu bağrıma basan günü biləcəm ki, mən daha yetim deyiləm, canımdan-qanımdan doğulmuş bir insan var bu dünyada. Gələcəkdə mənə, sənə, Vətənə arxa, dirək olacaq insan.

N a h i d ə. Yəni sən belə gec qayıdacaqsan? *(Ağlayır.)*

Ü m i d. Hər halda o mənsiz doğulacaq. Nigarançılığım ondandı, amma nənəm hələ yaxşıdı, Mirkərim ağa böyüdüb boya-başa çatdırdığı yetim qızını yiyəsiz, arxasız qoymayacaq.

N a h i d ə. İnşallah!

Ü m i d. İnan mənə, Nahidə, mən mütləq qayıdacam, lap qara kağızım, itkin kağızım gəlsə də, bil ki, qayıdıb gələcəm, mən öz övladımı mütləq görməliyəm, Allah onu da mənim kimi yetim eləməyə qıymaz, mənim içimdə möhkəm inam var. Görünür bu, bizim tale yazımızdı. Yazıya pozu yoxdu.

N a h i d ə. Umud, sən çox uzaqlarda olacaqsan?

Ü m i d. Çox- çox uzaqlarda, amma bu səni qorxutmasın, mən həmişə burda olacam, bax o körpə ağacı görürsən, biləndə ki, sən artıq hamiləsən, boynuna uşaq düşüb, əkdim bu şitili, görürsən xeyli böyüyüb, mənə sözün olanda ona deyərsən, bil ki, eşidəcəm səni, harda olsam, eşidəcəm. *(Nahidəni qucaqlayır.)* Bir də səni nə vaxt qucaqlayacam, bilmirəm. *(Öpür.)*

N a h i d ə. Qurban olum sənə, Umud, qadan ürəyimə...

Ü m i d. Gedək içəri, səhərə az qalır. *(Gedirlər.)*

*Musiqi. Həzin məhəbbət nəğmələri səslənir.*

*Səhərdir. Həmin məkandır. Fatma və Nahidə əl-ayaq eləyirlər, kiçik kisənin içinə müxtəlif bükülüləri yerləşdirir, yol tədarükü görürlər.*

Ü m i d *(Qıvraq yol geyimindədir*). Nənə, ta evdə bir şey qalmadı? Ay arvad, o boyda yükü daşımaq özü bir zülümdür. Camaatı mənə güldürmək istəyirsiz?

F a t m a. A bala, sən arvad işinə qarışma, lazımsız şeyi o torbaya qoymaram. *(Əlini qeyri-müəyyən səmtə uzadır.)* Ora çatanda mənə sağ ol deyəssən, açıb işlədəndə, nənənin qədrini biləcəksən. Az, o yun canlığı qoydunmu?

N a h i d ə. Qoydum, nənə... Arxayın ol. *(Gözünün yaşını gizlicə silir).*

F a t m a. Bax nə geyinirsən gey, altdan bu canlığı əyninə almaq yadından çıxmasın, dualıdı.

Ü m i d *(Gülür).* Nənə, ta denən zirehdi də.

F a t m a. Püstə toxuyub, ovsun eləyə-eləyə. Düzdü, bu gəlin elə şeylərə inanmır, gülür, elə Mirkərim ağa da belə şeyləri günah buyurur, amma mən də bildiyimi bilirəm ha. Bax elə indidən gey əyninə.

Ü m i d. Nənə, indi bu istidə cannıx giyim mən? Düşmən var burda?

F a t m a. Hə, o da düzdü, Urusetdə geyərsən, oralar deyirlər həmişə soyuqdu. *(Birdən kövrəlir.)* Nənən ölsün, əyaxlarıyın altında qurtarsın, Umud. *(Örpəyinin ucunu üzünə sıxır.)* Ə, mən öləcəm sənsiz, çatlıyacam mən.

Ü m i d. Nənə, qurban olum, toxta, sənə ağlamaq yaraşmır. *(Qucaqlayır.)* İndi Nahidə də başlayacaq. Bax, gəlir. *(Arvaddan aralanır.)*

N a h i d ə *(Əlində parçaya bükülmüş bir bağlama gətirir)*. Umud, bu xırdaca Qurandı, həmişə üstündə saxla.

Ü m i d. Nə danışırsan, Nahidə? Bilmirsən, orda belə şeyə yaxşı baxmırlar, elə burda da. Baxma ey, Mirkərim ağaya dəymirlər, hörmət eləyirlər.

F a t m a. Hə, tökülmüşdü hürmət, cəddindən qorxurlar, yoxsa çoxdan getmişdi əlli-ayaqlı, ocağına qurban olduğum.

N a h i d ə. Umud, qorxma, sən onu gizlət, əl boydadı, gəzdir döş cibində, lap ürəyinə yaxın yerdə, sən istədiklərinin canı, sözümü yerə salma. *(Quranı ona uzadır.)*

Ü m i d. Yaxşı, birtəhər...görüm də. *(Alır.)*

*Mirkərim ağa və Ziyad gəlirlər.*

M i r k ə r i m. Əssalaməleyküm, sabahınız xeyir! (*Hamı ilə görüşür. Nahidənin alnından öpür.)* Toxtaq ol, qızım. Elnən gələn dərd toy-bayramdır.

Ü m i d. Sabahınız xeyir, xoş gəlmisiz, ağa baba, Ziyad! Gördüyünüz kimi mən də gedirəm.

M i r k ə r i m. Yaxşı yol, Umud, Allah köməyin olsun! Vətənə sevgi imandandır. Cənab Həzrət Əlinin gözü üstündə olsun! Gərək

siz fəxr eliyəsiniz ki, Fatma, evinizin kişisi elini-obasını qorumağa gedir.

F a t m a. Mən balamın dalınca göz yaşı tökən arvadlardan deyiləm, ağa. Onun arxasınca su atıb, alxış eləyəcəm.

Z i y a d. Varam xalanın qeyrətinə! Ağa, Umudun bronu vardı, özü könüllü gedir, hərbi komissarlığa ərizə verdi getmək üçün.

M i r k ə r i m. Vətən darda olanda kişinin birinci vəzifəsi silaha sarılmaqdı. Hamı gec-tez gedəcək. Deyir, Musanın əsası ilə gəlməyən, Fironun əsası ilə gələr, bala. Bəs necə?

Z i y a d *(Sifətinə qəribə saxta görkəm verir).* Mən özüm də getmək istəyirəm, həkimlər qoymur, deyirlər, biz şikəst adamı cəbhəyə göndərə bilmərik.

*Onun bu sözlərinə əhəmiyyət verən olmur.*

*Fatma və Nahidə girib-çıxır, hazırlıqla məşğul olmaqda davam edirlər.*

M i r k ə r i m. Umud, oğul, dava meydanında düşmən qabağından çəkilmək kişilikdən deyil. Allah da belələrini istəməz. Zalım düşmən məğlub olacaq, inşallah, çünki haqq-ədalət sülhsevər xalqın tərəfindədir. Çünki hücuma bizlər – günahsız insanlar məruz qalmışıq. Sən bu vətənpərvərliyinlə imam övladı kimi hərəkət edirsən.

*Səlbi arvad gəlir. Hiss olunur ki, ağlı-huşu başında deyil, həyəcanlıdır. Əlində bağlama var. Hamı pərt halda susub, dayanıb.*

S ə l b i. Ay Allahın sevən, Umud hanı? Az, Fatma, məndən niyə gizlədirsən Umudun fronta getməyini?

M i r k ə r i m. İlahi, sən bu binəvaya kömək dur!

F a t m a. Səlbi? Xoş gəlmisən. Həmişə sən gələsən!

S ə l b i. Az, yox ey, sən mənə de görüm, Umudun fronta Şəmil kimi könüllü getdiyini niyə gizlədirsən məndən, paxıllığım tutacaq? Bəlkə bir ismarışım-zadım var uşağa? Bəs mən ana döyüləm? Ürəyim paralanmır burda?

Ü m i d. Səlbi xala, nətəhərsən, o gün verdiyim dərmanı atdınmı?

S ə l b i. Boy, Umud, nə yaxşı hələ getməmisən, ə? Başına dönüm sənin! *(Qucaqlayır.)* Bax, Şəmili görsən, bilirəm ki görəəssən.

F a t m a. Allah, özün saxla!

S ə l b i. Bax bu sovqatı verərsən ona. Yeddi cüt yun corabdı, özüm öz əlimlə toxumuşam. Anası ölmüşün əyağında yel var.

Ü m i d. Səlbi xala, axı...

M i r k ə r i m. Verər, Səlbi, niyə vermir? Umud, götür o corabları, mütləq çatdır Şəmilə.

S ə l b i. Allah imanını kamil eləsin, a kişi, cəddinə qurban olum! Bax, özünə çatdır a, Umud. De ki, genə toxuyuram, yun yığmışam, darıyıram.

F a t m a. Gedək, Səlbi, gəl ötürüm səni. Allah Şəmilə də, elə əsgərlərimizin hamısına arxa dursun, köməy olsun!

S ə l b i *(Dartınır).* Niyə qovursan, az məni? Evi yıxılsın Ziyadın, görüm heç ağ gün görməsin! *(Ziyadı görür.)* Burdasan, a qurumsax?

Z i y a d. Yenə düşdü mənim üstümə. Ay arvad, nə istəyirsən məndən, mən nəyin yiyəsiyəm? Nə verib, ala bilmirsən?

S ə l b i. Ə, qaraxəbər oğlu qaraxəbər, mənim balam ölüb ki, sən mənə qara kağız gətirirsən?

M i r k ə r i m. Ziyad, oğlum, sən belə dur. Səlbi, hövsələ elə, səbrli ol, hər şey Allahın əlindədi, Ziyadlıq iş deyil bu, umudunu Allaha bağla, gecəni sabaha, mıxı mismara döndərən də o, özüdü. Səbrli ol, Allah özü əcrini verəcək.

F a t m a. Gəl, Səlbi, gəl, bədbaxtın qızı, gəl get evinə, çırağını yandır, Allaha ağır gedər, Şəmilə əyan olar, gəl ötürüm səni. *(Qapıya tərəf aparır.)*

S ə l b i. Burax, özüm gedəcəm, hələ başımdadı ağlım. *(Gedir, səsi eşidilir.)*

Mən aşiq, qəm daşıyam,
Od vurdum, qəm daşı, yan.
Kimsə olmaz mənim tək-
Dərd çəkib, qəm daşıyan.

F a t m a. Niyə Allah bu zülmü götürür, ağa, axı o yazığın aman-zaman bircə balası vardı…

M i r k ə r i m. Nəyin pis, nəyin yaxşı olduğunu qurbanı olduğum bilir. Hökm onun hökmüdü.

Z i y a d. Vallah, mən baş götürüb gedəcəm bu kənddən. *(Gedir.)*

N a h i d ə *(Yavaşdan).* Əzrayıl aparsın səni! Görüm axır gedişin olsun!

F a t m a. Umud, nənən qurban, korluq çəkmə, yemək-zad qoymuşam, çil xoruzu da soyutma eləmişəm, birinci onu yeyərsən, iylənməsin. Fətiri uzaq yolda yeyərsən. *(Qucaqlayır.)* Mən adda nənən ölsün, qurtarsın!

M i r k ə r i m. Di, bəsdirin, ağlayıb-sıtqayıb Umudun ürəyini bir tikə eləməyin. Qızım, o Quranı gətir bura.

*Nahidə içəri keçir.*

F a t m a *(Əlini nanə kimi əsən ürəyinin üstünə qoyur, sinəsini göstərir.)* Tökülmüşüm irahatlıq bilmir ha, elə quş kimi pırıldayır. Bu ayrılığa dözə bilməyəcək, çatlayacaq ürəyim.

Ü m i d. Nənə, ixtiyarı yoxdu çatlasın, mən sənə Nahidəni tapşırıb gedirəm. *(Çiynindən qucaqlayır.)* Sən ondan muğayat ol, o səndən...

M i r k ə r i m. Arxayın ol, Umud, göydə Allah, yerdə biz, qoymarıq evinin tüstüsü kəsilsin, işığı keçsin.

N a h i d ə *(Əlində Quran gəlir).* Buyur, ağa baba.

M i r k ə r i m *(Quranı alıb öpür).* Di gəl, müqəddəs Quranın altından keç, Umud. Quran yiyəsi köməyin olsun. At içindəki şəkk-

şübhəni, yaxın gəl, oğlum. İnşallah, müqəddəs kitabın sahibi səni xətadan-bəladan hifz eləyəcək.

*Ümid kitabın altında dayanır.*

M i r k ə r i m. Əuzu billahi minət-şətanir-rəcim. Bismillahir rəhmanirrəhim. Və min vəsa-is-səfər. Yaradanın əli üstündən əskik olmasın, oğul! Yadından çıxartma,əl-qisas bi-l-qisas. Qisasa qisas lazımdır. İndi keç, Allah işini avand eləsin!

F a t m a. Amin!

N a h i d ə. İlahamin!

Ü m i d *(Quranın altından keçir).* Çox sağ ol, ağa baba! İmanın kamil olsun!

M i r k ə r i m. Di, görüş nənənlə, yoldaşınla. Utanma.

Ü m i d. Nənə, Nahidə amanatı. *(Fatmanı qucaqlayır.)*

F a t m a. Ölüm ayağının altında, Umud. Nahidəyə özümdən yaxşı baxacam...

Ü m i d. Nahidə, sən də dediklərimi unutma, çıxartma yadından. Salamat qal. Səni nənəmə, nənəmi də sənə tapşırıram. İkinizi Allaha...

N a h i d ə. Arxayın get, Allah amanında ol. Mən səndən ayrılmıram.

M i r k ə r i m. Di, yaxşı yol! Allah yolunu hamar, niyyətini işıqlı eləsin.

*İşıq get-gedə azalır.*

*Ümid torbasını götürüb çiyninə atır. Daha heç kəsə baxmadan gedir.*

*Nahidə eyvanın sürahısına söykənib yenə göz yaşı tökür. Fatma Ümidin dalınca su atır. Bu yolasalma mərasimi üstündə döyüş səsləri, avtomat, pulemyot, top atəşləri eşidilir.*

*Kiçik pərdə enir.*

*Səslər davam edir. Radiodan diktorun məlumatı fona çevrilən döyüş səslərini üstələyir.*

R a d i o. Diktorun məlumatı: Diqqət! Diqqət! Sovet İttifaqı Teleqraf Agentliyinin məlumatı. Bu gün rəşadətli Qızıl Ordu alman faşistlərinə sarsıdıcı zərbələr endirmişdir. Ukraynanın paytaxtı Kiyev şəhəri yaxınlığındakı Şostika ətrafında Basmaç və Piryatin rayonlarında düşmənin tank hissələri ilə qanlı döyüşlər aparan onuncu tank diiviziyasının tərkibindəki 20-ci tank alayı mayor Həzi Aslanovun komandanlığı altında alman faşistlərinə ağır zərbələr endirmişdir... *(Hərbi texnikanın möhtəşəm səsi güclənir, döyüş səsləri arasından)* «Ura» sədaları eşidilir.

*Yaxınlıqda eşidilən atışma səsləri getdikcə uzaqlaşır. Gənc əsgər qolları üzərində yaralı bir döyüşçünü gətirir. Əsgər təlaşlı görkəmdədir.*

Z a b i t. Kolya,əzizim, məni yerə qoy...

K o l y a. Darıxma, leytenant, çatırıq, az qalır, lap az qalır.

Z a b i t. Sənə deyirəm, yerə qoy məni, havam çatmır. Biz indi hardayıq, Kolya?

K o l y a. Dneprin sağ sahilində. Düşmən qaçır, leytenant, biz onları sıxışdırmışıq. Azca döz, bu saat doktor özünü yetirər.

Z a b i t. Su ver mənə, su, ürəyim yandı.

K o l y a *(Nəfəsi təngiyir).* Biz çatmışıq, artıq çatırıq. *(Qışqırır.)* Ey, kim var burda?

Z a b i t. Kolya, bağrım çatladı, ölürəm, məni yerə qoy.

K o l y a *(Daha bərk qışqırır).* Ey, qırılmısız, kim var burda? Köməyə gəlin. *(Zabiti yerə qoyur. Sinəsini açıb yarasına baxır və qeyri-iradi hönkürür.)* Sən sakit ol, leytenant...

Z a b i t. Səs gəlir, almanlardır. *(Yerindən qalxmağa təşəbbüs edir.)* Avtomatımı ver, avtomatımı... *(Dartınır, dərhal yıxılır.)* Anaaa...

K o l y a. Kimdi? Mən bu saat... *(Ora-bura qaçır, avtomatı atəş üçün hazır saxlayır.)* İndi hamınızı gəbərdəcəm, əclaflar!

S a n i t a r *(Hövlanak xərəklə qalxır)*. Kolya? Nikolay, sən nə edirsən, avtomatı aşağı sal. Köməyə gəl, təcili.

K o l y a. Vanya? Vanya... *(Zabitə)* Bizimkilərdir... *(Gülüb ağladığı məlum deyil)* Vanya! *(Ehtiras və həyəcanla qucaqlayır)* Vanya... Vanya, leytenant ölür, o ölür...

S a n i t a r *(Onun əlindən sıxır).* Sakit ol, Axundov bizimlədir, sakit ol! *(Yaralıya baxır*) Bu ki, Qluşkodur! Stepan! Stepan, darıxma əzizim, biz burdayıq... *(Üstünə əyilir.)*

Z a b i t. Vanya, mənə su ver, Vanya... Su...Suuu...

S a n i t a r. Bu saat, indi... *(Flyaqasını çıxardır, ağzını açır, suyun olmadığını görür.)* Yoxdu, su yoxdu... İndi sənə olmaz, bir azdan.

K o l y a. Çox qan itirib, ona görə su istəyir, onun yarasını bağlamaq, axan qanın qarşısını almaq lazımdır. Bəs hanı doktor? *(Ora-bura qaçır.)* Ey, hardasınız? Yoldaş Axundov!!!

Ü m i d *(Qaçaraq gəlir. Çiynində sanitar çantası var).* Kimdi məni çağıran? Kolya! Noolub, Kolya? Nə xəbərdi?

K o l y a. Qluşko yaralanıb, vəziyyəti ağırdır.

Ü m i d. Bu saat! *(Zabitə yaxınlaşır.)* Stepan, yoldaş leytenant...

Z a b i t. Su verin, su verin mənə...

Ü m i d. Bu saat... *(Yarasına baxır.)* Qorxma, Styopa, bu saat... bu saat... Kolya, Vanya, onu məntəqəyə çatdırmaq lazımdır. Ona təcili qan vurulmalıdır. Köməkləşin götürək. Tələsin! Tələsmək lazımdır, qardaşlar. Vaxt itirmək olmaz.

Z a b i t. Su verin mənə...su...

Ü m i d. Hə, götürdük!

*Birlikdə yaralı zabiti götürürlər. Atışma səsləri güclənir. Projektor işıqları səhnənin və tamaşa zalının üzərində oynaşır, bir-birini sürətlə kəsir.*

*Kiçik pərdə qalxır.*

*Bura səyyar tibb məntəqəsidir. Sanitar, Kolya və bir neçə yaralı, əli-qolu, başı sarıqlı əsgərlər səhnədə görünürlər.*

K o l y a *(Papiros eşib yandırır).* Əclaflar, kötək yeyən kimi qaçırlar. Kişiliyiniz budu. Bu hələ harasıdı? Sizin ananızı...

S a n i t a r. Kolya, qardaş, sən də Sumi vilayətindənsən?

K o l y a. Hə, ordanam, Lebedinski rayonundan, necə bəyəm? Orda qohumun var?

Y a r a l ı ə s g ə r *(Maraqla söhbətə qarışır*). Lebedinskidən? Deyirlər orda bir kəndi faşistlər oda qalayıblar. Bir sağ adam buraxmayıblar. Kənd başdan-ayağa külə dönüb.

K o l y a *(Qəhərli-qəhərli).* Hə, hə, o bədbəxt kənd bizim kəndimizdi, Bratskoye. Yetmiş ev vardı. *(Papirosunu sümürür.)* Heç bircə ağac sağ çıxmayıb, nəinki adam.

S a n i t a r. Deyirlər kommunistləri diri-diri yandırıblar.

K o l y a. Tək kommunistlər olsaydı, dərd yarıydı, arvad-uşağa rəhmləri gəlməyib.

Y a r a l ı ə s g ə r. Faşistdən rəhm gözləmə.

K o l y a. Mənim ailəmdən heç kəs sağ qalmayıb. Anam, kiçik qardaşım, bacım... Bütün qohum-əqrəba... *(Getdikcə səsini qaldırır.)* Mənim indi heç kəsim yoxdur, hamısı... Hamısı... *(Yumruğunu hirsindən yerə çırpır.)*

S a n i t a r. Sakit ol, Kolya, biz onların dərsini vercəyik!

Y a r a l ı ə s g ə r. Qaçırlar, siçovul kimi qaçırlar... Kolya. *(Yumruqları ilə göz yaşlarını silir.)* And içmişəm. Axır nəfəsimədək vuruşacam, qisas alacam, qisas! Bilirsiniz, qisas, qisas...

S a n i t a r. Bəs atan hardadır, o da... həlak?..

K o l y a. Yox, atam məndən qabaq getmişdi cəbhəyə, indi partizan dəstəsindədir. Heç yəqin ailəmizin taleyindən xəbəri yoxdur. Hardan bilsin? *(Ayağa qalxır, gərdiş eləyir.)* Sabahı bilirsiniz, necə gözləyirəm?

S a n i t a r. Qanlı döyüş olacaq! Boq nam pomojet!

K o l y a. Net, ne boq! Mənim nifrətim, «qisas» deyib bağıran isim qalib gələcək! Bilirsiniz, uşaqlar, mən əlbəyaxa döyüş istəyirəm, mən onları canavar kimi dağıtmaq, didmək, parçalamaq istəyirəm. Mən onların dəhşət dolu rəhmsiz gözlərini yaxından görmək istəyirəm. *(Əllərini yumruq eləyib başına vurur.)* Mən o gözləri ovub yerindən çıxarmaq istəyirəm. Mən...

S a n i t a r. Sakit ol, Kolya, bu qan yerdə qalmayacaq, tək sən deyilsən dəhşətli faciə ilə üzləşən, biz hamımız yaralıyıq, hamımız. Çünki Vətənimizə təcavüz olunub, mənliyimiz tapdanıb. Hamı qisas

istəyir. Bütün dünya alçaqlığı, vəhşiliyi, rəzilliyi pisləyir, qisas istəyir. *(Birdən arxaya çevrilir.)* Aha, Axundov gəldi.

*Hamı çönüb səhnəyə gələn ağ xalatlı Ümidə baxır.*

Ü m i d. Leytenantın canı möhkəmdi. Zalım oğlu hesab elə, kəfəni deşib çıxdı.

Y a r a l ı  ə s g ə r. Kəfəni deşdi? O nə deməkdir, yoldaş leytenant?

Ü m i d. Bizdə belə bir el sözü var. Çox ağır vəziyyətdə olan xəstə sağalırsa, onda deyirlər ki, kəfəni deşib çıxdı. Yəni, leytenant Qluşko yaşayacaq, daha ona zaval yoxdur.

K o l y a. Spasibo, brat. Sənin əllərin qızıldı, xalis qızıl.

S a n i t a r. Axundov, sən qəhrəmanlıq eləmisən, amma necə sakit danışırsan. Axı o, həqiqətən çox qan itirmişdi, son nəfəsiydi. Sifət də ki, ölü sifəti.

Ü m i d. Xoşbəxtlikdən onun qan qrupu ilə mənimki eyniydi, daha gözləmədim.

Y a r a l ı  ə s g ə r. Məgər sən öz qanından vurdun?

K o l y a. Axundov, sən qızıl oğlansan.

Ü m i d. Hə, indi Qluşko ilə mən qan qardaşıyıq.

S a n i t a r *(Qalxıb vəcdlə Ümidi özünə tərəf çəkir, qucaqlayır.)* Mən istərdim ki, sən döyüş vaxtı həmişə yanımda olasan.

Ü m i d. Onda böyük Allaha dua elə, Vanya.

S a n i t a r *(Təəccüblə).* Axundov, sən Allaha inanırsan?

Ü m i d *(Əsgərlərə baxır).* Necə yəni, əlbəttə. Bu mənim daxili azadlığımdı, vicdanımın səsidir.

K o l y a. Deməli, inanırsan. *(Hirslə)* Mənim anam da inanırdı, evimizdə İkona da vardı, pərdə altında, səhər-axşam da İkonanı gizlədən pərdəni qırağa sivirib dua eləyərdi, biz gülürdük onun avamlığına, amma o susurdu, heç nə demirdi, duasından da qalmırdı. Kənd kilsəsinə getməkdən də. Bəs nə oldu? Hardaydı o Allah, hardaydı o İkona? Niyə qorumadı anamı, qudurmuş faşistlər evimizə, ailəmizə od vurub yandıranda, niyə dadına çatmadı? Deməli, sizin Allahınızın da əli var bu cinayətdə. Düz demirəm? Axı deyirsiniz, onun hökmündən kənarda heç nə baş vermir?

Ü m i d. Mən sənin faciəni çox gözəl başa düşürəm, Nikolay, məsələ də inamda deyil. Mömin insanlar Allahın verdiyi xoşbəxtliyi, sevinci şükranlıqla qarşıladıqları kimi, onun göndərdiyi bəla və müsibətləri də səbrlə, dözümlə qəbul eləməyə borcludurlar. Mərhəmətili Allah hər şeyi görür.

K o l y a. Mən heç nə başa düşmürəm, Axundov, heç başa düşmək də istəmirəm, bu fəlsəfə mənlik deyil. Mən səhərin, sabahkı günün eşqilə alışıb-yanıram, qisas hissi məni coşdurur, bu saat məni yaşadan da odur, amansız bir intiqam!

Ü m i d. Əl-qisas bi-l- qisas.

S a n i t a r. Doktor, nə dediniz? Başa düşmədik.

Ü m i d . Bizim kənddə bir savadlı, ağıllı din xadimi yaşayır. Onun sözünü təkrarladım: qisasa qisas.

Y a r a l ı  ə s g ə r *(Təəccüblə).* Heç inanmazdım ki, leytenant Axundov ruhanilərlə oturub-dursun, onlardan misal çəksin. Sanitar, axı Sovet ideologiyasında Allaha yer yoxdur.

Ü m i d *(Gülümsəyir).* Allah öz yerini özü müəyyən edir, ideologiyalar yox.

K o l y a. Axundov, siz nəinki Allaha inanırsınız, hətta dindarsınız, onu təbliğ edirsiniz. Qorxmursunuz? Axı Sovet zabiti ateist olmalıdır, bunu bizim zampolitimiz də deyir.

Ü m i d. O başqa məsələ. Ümid edirəm ki, məni ələ verməzsiz. *(Gülür.)*

*Hamı ona qoşulub gülür.*

Ü m i d. Əslində düzünə qalsa, mən tərəddüd içində vurnuxuram. Nikolayın bayaqkı sualları hərdən məni də çaşdırır. O zaman düşünürəm ki, mən hələ çox az şey bilirəm, dünyanın hikməti dərindir, gördüyümüz qədər deyil.

K o l y a. Onda mən getdim, sabaha hazırlaşmalıyam. Siz yaralı sağaldırsınız, mən düşmən yaralayır, bəzən də öldürürəm. Hər kəsin öz işi var. *(Gedir.)*

Y a r a l ı  ə s g ə r. Mən də bir az dincəlim, yaram ağrıdı.

Ü m i d *(Sanitara).* Vanya, axşam onun sarğısını dəyiş, qospitala yola salacayıq, Qluşkonu da yola hazırlayarsan. Sabah burda it yiyəsini tanımayacaq.

S a n i t a r. Oldu, baş üstə, yoldaş leytenant!

Ü m i d. Yaxşı-yaxşı, rəsmiyyətə ehtiyac yoxdu, mən adi həkim kimi tövsiyəmi verdim.

S a n i t a r. Siz gərək həkim yox, filosof olaydız, fəlsəfə müəllimi.

Ü m i d. Eh, Vanya, həyat öz sözünü diktə edən filosofdur, biz də onun tələbələri. Əlaçılar da var, zəif oxuyanlar da.

S a n i t a r. Məktəbdə olduğu kimi. Bizdə Manya vardı, əlaçıydı, müəllim nə deyirdi, yazırdı beyninə, qrammofon valı kimi, amma mən... Beş dəfə oxuyandan sonra ölüvay bir «üç» alardım, tramvay altında qalmış əzik-üzük üç.

Ü m i d. Nə etməli, hamı eyni cür olsaydı, həyat darıxdırıcı olardı. Hikmət ondadır ki, hər bir fərd təkrarsızdır. Vaxtsa getmir, tısbağa kimi sürünür. Düz üç ildir evdən çıxdığım. Üç ağır, uzun il.

S a n i t a r. Doktor, axır vaxtlar çox fikirli, mən deyərdim, bikef görürəm sizi, əvvəllər belə deyildiniz, çox coşqun idiz, nikbin, üzügülər.

Ü m i d. Sevinməli hadisələr çox azdı, Vanya. Ana əvəzi olan nənəm vəfat elədi məndən sonra, oğlum dünyaya gəlib, üzünü görməmişəm.

S a n i t a r. Arvadınızdan heç nə demədiniz, o saat görünür ki, qafqazlısınız...

Ü m i d. Arvadım? Nə gizlədim, xeyli vaxdı mənə məktub yazmır.

S a n i t a r. Niyə? Səbəbini bilmirsiniz?

Ü m i d. Yox, düzəməlli bilmirəm.

S a n i t a r. Yəqin...

Ü m i d *(Onun sözünü deməyə imkan verməyib, əliylə ağzını qapayır).* Sus, Vanya, bu haqda heç nə demə.

S a n i t a r. Mən soruşmaq istəyirdim ki, yəqin gözəldir arvadınız.

Ü m i d. Sevilən qadın deməli, kiminsə gözündə gözəldir.

S a n i t a r. Nə yaxşı özünüz dediniz. Amma başım çəkib deyəcəm, arvad gözəl oldu, gərək yanından tərpənməyəsən. Mənim Qalyam kimi. Yazır ki, Vanya, bir aya qayıdıb gəlməsən, məni bir daha görməyəcəksən. Cavab verdim ki, burda mən ezamiyyətdə deyiləm, müharibədəyəm, əsgərəm. Nə cavab versə yaxşıdı, doktor?

Ü m i d. Nə deyim? Mən sizin qadınları başa düşmürəm.

S a n i t a r. Yazır ki, bəlkə heç müharibə qurtarmadı, mən ərsiz qalacam?

Ü m i d *(Gülümsəyir).* Məntiqli sualdır.

S a n i t a r. Siz gülürsüz, doktor, o doğrudan da məntiqli hərəkət elədi, qoşulub ağsaç bir kişiyə, köçüb Orta Asiyaya, Özbəkistan tərəfə.

Ü m i d *(İnamsız)*. Yox,yox Allah eləməsin, bizim qadınlar dözümlü, vəfalı olurlar. Əslində bizdə bu namus məsələsidir. Məsələn, nənəm gəncliyində ərini itirib...

S a n i t a r. Necə yəni, itirib?

Ü m i d. Ölüb də əri, mənim babam, sonra arvad heç bir kişiylə yaxınlıq etməyib, ərə getməyib, ömrünü yeganə oğluna, mənim atama sərf edib, təəssüf ki, o da qəzaya düşüb, anamla. Yenə də qalıb tək, mənimlə.

S a n i t a r. Axı belə də yaramaz, doktor. Vəfanın, sədaqətin də ölçüsü olmalıdır. İnsan bir dəfə yaşayır.

Ü m i d. Onu heç kəs bilmir.

S a n i t a r. Nəyi doktor?

Ü m i d. İnsanın neçə dəfə yaşadığını.

S a n i t a r. Maraqlı şeylər deyirsiniz, doktor, amma arvada etibar yoxdur. Hər şey də Həvvadan başlayır, hələ anamız Məryəm, heç ərə də getməmişdi, amma doğdu, özü də kimi, kimi-peyğəmbəri, İsanı.

Ü m i d. Ay səni Vanya, sənin dindən də xəbərin varmış. *(Saata baxır.)* Get gör Paşa poçtu gətirməyib, çoxdan gətirməliydi.

S a n i t a r. Oldu, yoldaş leytenant! *(Gedir.)*

*Uzaqdan rus xalq mahnısı eşidilir. Ümid cibindən şəkil çıxarıb baxır.*

Ü m i d. Vəfasız deyim sənə, dilim gəlmir, etibarsız deyim, söz tapmıram. *(Oxuyur.)*

Dağlarda bir maral var,
Başında tirmə şal var.
Adı çıxmış yadımdan,
Üzündə qara xal var.

*Sanitar əlində bir dəstə qəzet, məktub gəlir və dayanıb mahnını dinləyib.*

Dilbərim, dilbərim,
Gəl, gəl, ahu balası.
Uca dağlar arası...

S a n i t a r. Doktor, nə qəmli mahnıdı?

Ü m i d. Vanya, sən hər şeyi bilirsən, amma burda səhvin var, bu mahnı qəmli deyil, mənim ifamda qəmli səslənir.

S a n i t a r. Onda bu sizə məktub, bu da qəzetlər, sevinin.

Ü m i d. Məktub? *(Tələsik alır, tez də məyus olur.)*

S a n i t a r. Nə oldu? Niyə sevinmədiniz?

Ü m i d. Niyə ki, sevinirəm. Məktub dostumdandır. Vəfalı olan bir odur. Hələlik sən qəzetlərə bax, Vanya, mən də görüm, dostum nə yazır?

S a n i t a r. Yaxşı, mən qırağa çəkilirəm. *(Qəzeti alıb bir kənara çəkilir.)*

Ü m i d *(Məktubu açır).* Yenə də Ziyad.

Z i y a d *(Səsi gəlir).* Əziz qardaşım Ümid, salam. Bağışla ki, çoxdandır sənə kağız yazmıram. Baş qarışıqdır. Qara kağızın əlindən günümüz qaradır. Sizdə salamatlıqdır. Oğlun Nahid, maşallah, böyüyür, hələ danışır da.  Özü də böyük adam kimi, deyəsən, şair olacaq. Nahidədən heç nə yazmaq istəmirəm, doğrudan da arvada etibar yoxdur. Vaxt gələr, özün hər şeyi bilərsən. Özündən muğayat ol, hər kəs öz başının hayındadır. Mirkərim ağa da xəstədir, əli qələm tutmur, quruyub, sənə kağız yaza bilmir, çoxlu salamı var. Ta nə yazım, ürəkaçan heç nə yoxdur. Sağ ol, qardaş, fikir eləmə, yaman günün ömrü az olar. Dostun Ziyad. Bəlkə mən də könüllü fronta getdim, bezmişəm tənəli baxışlardan, sağsağan kimi qara xəbər yaymaqdan. Camaatın ta zəhləsi gedir məndən.

Ü m i d *(Kağızı ovcunda əzir).* İnanmıram, Nahidə, inana bilmirəm, Mirkərim ağanın tərbiyəsini almış, çörəyini yemiş insan belə üzüdönüklük eləməz. Bəs onda?.. Bəlkə başında bir iş var, elə isə, niyə Ziyad... Yazmır, bəs bu nə eyhamdır? Allah, mənə səbr ver!.. Hövsələ ver!.. Vanya!

S a n i t a r. Eşidirəm, yoldaş leytenant.

Ü m i d. Sənin maxorkan var?

S a n i t a r. Var, doktor!

Ü m i d. Bir papiros bük çəkək. Heç nə soruşma, Allahı sevirsən, Vanya, papiros bük.

S a n i t a r. Oldu! *(Papiros büküb yandırır.)* Buyur, doktor, əla maxorkadır, amma çox bərkdir.

Ü m i d *(Çəkir və bir ağız öskürür).* Bu ki, tiryəkdir, evin yıxılmasın, başım hərləndi.

S a n i t a r. Bəs ləzzəti ondadı də, doktor.

*Ləzzətlə bir-birinə ötürə-ötürə növbə ilə çəkirlər.*

Ü m i d. Papiros nə yaxşı şeymiş? *(Sanitara verir.)* Adamı yüngülləşdirir.

S a n i t a r *(Dərin qullab vurur).* Doktor, papiros dost kimi, yoldaş kimi bir şeydi. *(Çəkir.)* Qəzetdə sizin zemlyak haqqında yaxşı yazıblar. Həzi Aslanov barədə, igid oğlandı.

Ü m i d. Hanı? *(Qəzeti götürüb oxuyur.)* Tank qoşunları general mayoru, «Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun briqadası düşməni geri oturdub». Sağ ol, eloğlu, başımızı uca elədin! *(Qəzeti oxumaqda davam edir.)*

*İşıq azalır. Döyüş səsləri, tank gurultusu yüksəlir.*

*İşıq tamam sönür.*

## İKİNCİ HİSSƏ

*Ümidgilin birinci şəkildə təsvir edilən evi. Nahidə xeyli köhnəlmiş, amma səliqəli ev paltarındadır. Eyvanda oturub uşaq paltarına yamaq vurur. Axşam tərəfidir, gah öz- özünə danışır, gah da tez-tez ətrafa boylanır, gözləri yol çəkir.*

N a h i d ə. Şükür ki, bu dəfə tez yuxuya getdi (*Qalxıb pəncərədən otağa baxır.)* Mışıl-mışıl yatır, getdikcə də Umuda lap çox oxşayır, lap çox- çox. Yaman da çoxbilmişdi (Qayıdıb oturur və işinə davam edir.) Üç ildir getdiyi, yox, üç ildən çoxdur görmürəm, nə qaldığı bilinir... *(Sözün dalını deməyə ürəyi gəlmir. Gözündən axan yaşı silir.)* Niyə yaddan çıxartdın ötüb-keçənləri, Umud, niyə heç olmasa, özündən bir xəbər-ətər vermirsən, ay namərd? Bəs belə demişdik, belə danışmışdıq? Mən heç, mən yad qızıyam, bəs axı sənin gül parçası kimi balan var, bəs demişdin... *(Sözünü bitirmir və yamadığı*

*paltarı ilə üzünü qapayır)*. Kaş bir quş olaydım, uçaydım o yerlərə, elə uzaqdan baxaydım, görəydim neynirsən, hardasan? *(Paltarı qatlayır. Pəncərə ağzındakı iri qara radionu yandırır. Musiqi səsi eşidilir. «Deyirdin ki, gözlə məni, gözləyirəm, sevgilim» sözləri ilə başlanan mahnı səslənir. Mahnı bitir, diktor informbüronun məlumatını oxuyur.)*

R a d i o. Diktor: «Diqqət! Diqqət! Sovet İttifaqı Teleqraf Agentliyinin məlumatı. 1944-cü il aprelin səkkizində Qızıl Ordu hissələri Vətən uğrunda gedən qələbə döyüşlərini uğurla davam etdirir. Faşist ordusuna sarsıdıcı zərbələr endirən rəşadətli ordumuz şəhərlərimizi, kəndlərimizi bir-birinin ardınca azad edir. Murdar düşmən sürətlə pərakəndə vəziyyətdə geri oturdulur».

N a h i d ə. Şükür sənin cəlalına, pərvərdigara! Sən özün zalımın belini qır, haqqı nahaqqa vermə! *(Doqqazın qapısı döyülür.)* Lənət şeytana, bu kim ola? Allah, özün xeyir elə! *(Eyvandan düşüb doqqaza tərəf gedir.)* Kimdi qapını döyən? Kimsən?

Z i y a d. Mənəm, Nahidə, Ziyaddı.

N a h i d ə. Ziyad? Nə var, yenə nə qara xəbərdi, qapını niyə döyürsən bu vaxt?

Z i y a d. Hə, hə, deyiləsi xəbər var, Nahidə, aç qapını, tez elə.

N a h i d ə. Nə xəbər? (*Çiyninə düşmüş örpəyini başına çəkib pıçıldayır.)* İlahi, çevir məni on iki min imamın başına, özün xeyir elə, onun pis xəbərini yaxşılığa yönəlt. Bu axşam gədədən heç gözüm su içmir.

Z i y a d. Cinnən-şeytannan danışırsan, orda, aç qapını, görək...

N a h i d ə (*Qapını açır).* Nə var, Ziyad? Sən Allahın adı qorxutma məni.

Z i y a d *(Gəlir).* Mənə bir xoş gəlmisən deyən olmadı.

N a h i d ə. Umuddan xəbər var, Ziyad?

Z i y a d. Var, bir istəkan çay ver mənə.

N a h i d ə. Nə çay, ə? İndi çay olar, ocağı çoxdan keçirmişəm. Sönüb.

Z i y a d. Nə tez, az, hələ indi axşam düşür.

N a h i d ə. Odun var? Günorta bir az çırpı tədarük eləmişdim, o da yandı qurtardı. Neyləməliyəm?

Z i y a d. Bəs niyə mənə demirsən?

N a h i d ə. Ziyad, niyə axı sənə deməliyəm, o sənlik deyil, sözünü de. Umuddan xəbər var, kağız yazıb, yoxsa?..

Z i y a d. Bilirsən ki, Umuda mən qardaş demişəm.

N a h i d ə *(Üzündə təlaş).* Ziyad, vallah, ya səni öldürəcəm, ya da özümü, çatlatma ürəyimi. Qara kağız gətirmisənsə, ver, rədd ol çıx get! Umudun vəfalı qardaşına bir bax! Sən o sözlərlə Umudun başını aldada bilərdin, mənim yox. Bilirəm sənin qardaşlığını. Hanı kağız? Ver bura!

Z i y a d. Kağız yoxdu.

N a h i d ə. Yoxdu?

Z i y a d. Dedim ki, yoxdu.

N a h i d ə. Allah, şükür olsun kərəminə!

Z i y a d. Sevinmə, kaş elə qara kağız gələydi, ondan pis xəbər var.

N a h i d ə. Nə xəbər? Yəni dünyada qara kağızdan da pis xəbər olar?

Z i y a d. Nahidə, Umud əsir düşüb, faşistlərə təslim olub.

N a h i d ə. Əsir düşüb? Harda? Necə?

Z i y a d. Özü də könüllü. Çox dəhşətli hadisədi.

N a h i d ə. Allah, məni öldür!

Z i y a d. Bəs mən nə deyirəm? Zərbəlinin oğlu Zakirdən məktub almışam. Yazır ki, Umud könüllü keçib nemeslərin tərəfinə. Cəbhədə aləm qarışıb, yəqin tüstü bu yana da keçər.

N a h i d ə *(Gözündən od parlayır).* Yalandır! Mən inanmıram! *(Qışqırır.)* İnanmıram!

Z i y a d. Nə yalandı, az, sabah inşallah, eşidərsən.

N a h i d ə. Bu sənin uydurmandır. Umud o qeyrətin, namusun yiyəsi deyil ki, könüllü əsir düşsün. Bəlkə mühasirəyə düşüb, bəlkə... *(Ağlayır.)* Yalandır! Umud sağ- salamat düşmən əlinə keçməz. *(Hönkürür.)*

Z i y a d. Stalin bilirsən də nə deyib? Bizim hərbi əsirimiz yoxdur, satqınlarımız var. Onlar da layiqli cəzasını alacaqlar.

N a h i d ə. Umud satqın deyil! Hanı o məktub? Göstər görüm?

Z i y a d. Hansı məktub, Nahidə?

N a h i d ə. Ciyəri yanmış Zakirin məktubu?

Z i y a d. Az, mən elə məktubu saxlaya bilərəm, atama od vurarlar, yandırdım, kül elədim.

N a h i d ə. Umud delə iş tutmaz, o qeyrətin sahibi deyil, ondakı mərdlik, ləyaqət heç bir kişidə yoxdur.

Z i y a d. Neynək, təki sən deyən olsun, amma müharibə insanları dəyişir, sıxıb suyunu çıxarır. İndi görək hökumət nə deyəcək, babası qolçomaq, o biri babası seyid-dindar, Şura hökumətinin gizli düşməni.

N a h i d ə. Dilin yansın, Ziyad?! Umudda qolçomaqlıq vardı?

Z i y a d. Bunu hökumətə nətəər sübut eliyəcəksən? Bu xəbəri mən üç gündür bilirəm, əzab çəkirəm, içim qan ağlayır, Nahidə. Sənin halına yanıram. Ancaq həqiqəti gec-tez bilməliydin.

N a h i d ə. İndi mən nə etməliyəm, Ziyad?

Z i y a d. Nə qədər ki, səs çıxmayıb başına çarə qıl, körpə tifilini düşün. Əri, atası faşistə satılanın aqibəti necə olmalıdır, Nahidə? Heç nə deyə bilmərəm, özün tədbir tök.

N a h i d ə. Bəsdir, başım hərləndi.

Z i y a d *(Onu tutmaq istəyir).* Otur, Nahidə.

N a h i d ə. Toxunma! Mən özümü öldürəcəm, mən onsuz yaşamayacam!

Z i y a d. Niyə, Nahidə, axı niyə? Düzdü, mən Umuda qardaş demişəm, ancaq o, heç məktub da yazmırdı sənə, o yəqin çoxdan bu fikirdəymiş. Özünə yazığın gəlsin, Seyidli kəndində əsir düşən bir

kişinin bütöy ailəsini, arvad- uşağını sürgün elədilər Qazaxıstan çöllərinə.

Nahidə. Mən özümü öldürəcəm, od vurub yandıracam! *(Qaçıb lampaya əl atmaq istəyir)*. Yandıracam özümü! Yaşamaq istəmirəm! Yandıracam!..

Z i y a d *(Onu tutub qucaqlayır).* Dayan, axmaq!..

N a h i d ə. Burax, burax, məni... *(Çırpınır.)*

Z i y a d. Dəlisən? Sən ağlını itirmisən? Sən... *(Qəfil öpür.)*

N a h i d ə. Burax! *(Ona güclü bir şapalaq vurur.)* Alçaq! Qurumsaq! Bu günümü gözləyirdin?

Z i y a d *(Üzünü tutur).* Nahidə... Nahidə, mən səni sevirəm, ölürəm dərdindən...

N a h i d ə. Sən qələt eləyirsən, sən... Rədd ol! *(Hönkürür.)*

Z i y a d. Unut o satqını, o səni çoxdan yadından çıxardıb, o xain çıxıb, o ya öləcək, ya da Sibirdə sürgündə çürüyəcək. Bu ləkə üstünüzdən getməyəcək.

N a h i d ə. Vallah, qışqırıb hamını yığaram bura. Kəndi kişisiz görmüsən, dərə xəlvət, tülkü bəy olub, şikəst köpəyoğlu!

Z i y a d. Nə istəyirsən, de. Söy, təhqir elə, vur, döy məni, amma «hə» de mənə. Mən səni sevirəm, gecə-gündüz başımdasan, oğluna da atalıq eliyərəm, səni yağ içində böyrək kimi saxlayaram. Yığış gedək evimə, tüpür o satqına, imtina elə ondan, o niyə kişi olsun?

N a h i d ə *(Astaca gedir və əlində balta ilə qayıdır).* Ölmək istəyirsənsə, qal burda! Ölmək istəyirsənsə, gir yorğanıma, Ziyad!

Z i y a d. Sən dəlisən, doğrudan dəlisən sən, o körpə, Nahidinlə sürgündə çürüyəndə kim yetəcək dadına?

N a h i d ə *(Balta əlində üstünə yeriyir).* Get burdan, Ziyad, yadından çıxart bu evi!

Z i y a d *(Qorxur, rəngi ağarır).* Gedərəm, birdəfəlik gedərəm burdan, amma peşman olacaqsan. Yenə üstümə qaçacaqsan, onda...

N a h i d ə. Kim peşman olacaq, onu Allah bilir. O, hər şeyi görür. Məni də, səni də, Umudu da. Sən kişi deyirsən özünə, axı Umuda qardaş deyirdin, nə tez bitdi bu qardaşlığın ömrü?

Z i y a d *(Hirslənir)*. Onsuz da səndən əl çəkməyəcəm! Ya mənim olacaqsan, ya da sürgünə gedəcəksən, hara lazımdı özüm xəbər çatdıracam! *(Gedir.)*

N a h i d ə *(Balta əlindən düşür).* Pərvərdigara, bu xəbər doğrudursa, yalan elə, yalandırsa, şeytanın belini qır! Axı sən hansı gündə lazımsan? *(Başını örtüb namaza dayanır. Onun pıçıltıları eşidilir)*.

*Mirkərim ağa gəlir. Nahidəni namaz üstə görüb namazın sonunadək hörmətlə, razılıqla ayaq üstə dayanıb gözləyir. Nahidə namazı qılıb qurtarır.*

M i r k ə r i m *(Öz-özünə)*. Bismillahirrəhmanir rəhim! Görəsən Ziyad buna deməz? Heç inanılası deyil. Yazıq gəlin, həmişə fikir-xəyal içindədir, Umud da susub qalıb, nə kağız yazır, nə məktublara cavab göndərir. Çox müəmmalı işdir. Bu tanıdığım Umuddusa, susan deyildi, şeytan əməlidi. Lənət şeytana! Ya Allah, özün bilən məsləhətdi.

N a h i d ə *(Namaz bitir, Mirkərim ağaya yaxınlaşır)*. Ağa, xoş gəlmisən, vallah, heç xəbərim olmayıb.

M i r k ə r i m. Qapını niyə bağlamısan, mənim balam?

N a h i d ə. Qapını? Nə bilim, uşaq başımı elə qatır ki. İndicə yatdı.

M i r k ə r i m. Bəs bu nə vaxtın namazıdı?

N a h i d ə. Nə bilim, ağa, ürəyim doludu. Dünən səksəkəli yuxu gördüm. Namaz qıldım, sakitləşdim bir az, ürəyim toxtadı.

M i r k ə r i m. Yaxşı eləmisən, namaz ruhun qidasıdı. Gələndə Ziyadı gördüm, yaxından keçirdi, kağız-zad gətirməyib?

N a h i d ə. Xeyir, ağa, Umuddan hələ ki, xəbər yoxdu. *(Ağlamsınır).*

M i r k ə r i m. Ağlamaq nədi? Səbr elə, umudunu kəsmə, Allaha pənah apar, bütün işlərin içindən yaxşısını seç: sağ-salamatsan, gül kimi oğul payın var, başının üstündə damın var, şükür elə, Allaha ən tez çatan şükranlıqdır, qızım! Sənə bir şələ çırpı gətirmişəm, odun da göndərəcəm, götürə bilmədim.

N a h i d ə. Ağa, ömrün uzun olsun, sən Umudun evinə bu çətin illərdə dayaq oldun.

M i r k ə r i m. Bu sözlərə ehtiyac yoxdu, qızım, sən mənim öz dopdoğma balamsan, Umud da eləcə. Allah Hitlerin evini yıxsın, elə yıxacaq da. Şərin ömrü uzun olmaz, inşallah! Necə dəfə demişəm, bir də deyirəm, qızım, köç gəl mənim evimə. Lap elə sabahdan. Nə deyirsən?

N a h i d ə. Mən razıyam, Allah da razı olsun səndən ağa, amma bu evin işığını yandırmalıyam, sönməyə qoymağa ixtiyarım yoxdur. Bağışla, bəlkə də ədəbsizlikdi: Nahid kimi kişi qırığı var burda *(Qırışığı azca açılır.)* Otur, ağa ayaq üstə dayanma . *(Yer göstərir.)*

M i r k ə r i m. Nə deyirəm, yenə özün bilən məsləhətdi. Dava da bu gün-sabah qurtarar inşallah, hər şey yaxşılığa sarı gedir. Səbr, dözüm, hövsələ gərəkdir.

N a h i d ə. Dava bizə çox şey öyrətdi, ağa. Həm dözməyi, həm də səbr eləməyi. Adamları da tanıdıq, yaxşını da gördük, pisi də.

M i r k ə r i m *(Yaşına yaraşmayan tərzdə qızarır).* Bu pulu da götür...

N a h i d ə. Yox, ağa, pula ehtiyacım yoxdur. Axı sən pulu hardan gətirirsən?

M i r k ə r i m. Bilirsən ki, seyid ocağı yalın olmaz, qızım, el-oba həmişə qulluğumda durub, elə bu davanın özündə də nəzir-niyazımı evimə gətirirlər. Allah bəndələrinin əliylə ruzimi yetirir, arxayın ol, götür bu beş-on manatı, ayın-oyun al evə, körpə balan var.

N a h i d ə *(Pulu alır).* Allah verən əlini, səxavətini kəsməsin, ağa!

M i r k ə r i m. Pul səxavətli adamın əlində peyin kimidir. Bu dünyada onu torpağa səpməsən, haqq dünyasında Allah əcrini verməz.

N a h i d ə. Allah səndən razı olsun, ağa baba!

M i r k ə r i m. Yaxşı, mən gedim, sabah uşağı da götür gəl bizə. Kəklik nənən umac bişirəcək. Axşama mərcili aş sifariş eləmişəm. Di, salmat qal.

N a h i d ə. Mütləq gələcəm, ağa, Nahidi də götürüb gələcəm, işallah!

*Mirkərim ağa gedir. Nahidə ovcundakı pula baxıb cibinə qoyur.*

N a h i d ə. Ağa nəsə bilir, yoxsa onun evinə köçməyimi belə təkidlə deməzdi. Bəlkə xəbər kəndə yayılıb? *(Fikirli gəzinir.)* Məni sürgünə göndərəcəklər, Nahidlə, körpəmlə, onun nə günahı? Bəlkə... Bəlkə mən olmasam, uşağa dəyməzlər? Körpə uşağı sürgünə ki, göndərməzlər... İlahi, mənə yol göstər, bir işarə ver, getməliyəmsə, bir işarə ver, yol göstər, yol göstər mənə, Allahım, yol göstər. *(Hönkürür.)* Hardasan, Umud, haradasan?..

*İşıq tamam sönür.*

*Kiçik pərdə enir.*

*İşıq təzədən yanır, kiçik pərdə bağlıdır. Döyüş səsləri eşidilir, budur, növbəti səhnənin iştirakçıları. Ümid də onların arasındadır, onlar pərdə önündə düzlənib, döyüş səsləri səngiyəndə qələbə ruhlu əsgər marşını xatırladan mahnı oxuyurlar. Mahnı bitir. Kiçik pərdə qalxır. Bura səyyar hərbi hospitalın qarşısıdır. Əl-qolu sarıqlı, başı bağlı insanlar, qoltuq ağacı ilə bir neçə əsgər var. Ümid mayor formasındadır. Əsgərlərdən biri ucadan qəzet oxuyur, digərləri isə həyəcanla, vəcdlə qulaq asırlar. Ümid nəsə yaza-yaza dinləyir.*

S a n i t a r *(Qəzet oxuyur).* Rəşadətli Sovet Ordusu artıq Berlini mühasirəyə almışdır. Faşistlərin son sığınacaq yeri, dünyaya meydan oxuyan Berlin qırıcı təyyarələrimizin bomba zərbələrindən lərzəyə gəlir. Qəhrəman sovet xalqının mərd övladları- ruslar, ukraynalılar, gürcülər, qazaxlar, azərbaycanlılar,özbəklər böyük vətənlərinin, dağıdılıb viran qoyulmuş şəhərlərinin, kəndlərinin, minlərlə, on minlərlə həlak olmuş insanlarımızın qisasını alırlar.

K o l y a. Hayıf, mən orda deyiləm, hayıf, yaralandım, yoxsa özüm dağıdardım Berlini, Bratskoyenin əvəzini çıxardım... *(Başını tutur, ağrıdan iki qatlanır.)*

Ü m i d. Kolya, Kolya!.. Belə olmaz, Nikolay, sən bizim işimizi çətinləşdirmə, sənə sakitlik lazımdır, başla zarafat olmaz, axı kontuje...

K o l y a *(Sözünü ağzında qoyur).* Mən necə sakit olum, yoldaş mayor? Mənim Vətənim yoxdur.

Y a ş l ı ə s g ə r. Bəsdir, Kolya, bu nə sözdür, necə yəni Vətənim yoxdur? Bəs dünyanın altında birini tutan böyük SSRİ, onun tərkibindəki gözəl Ukrayna sənin Vətənin deyil?

K o l y a. Batya, mənim evimi, aləmi, kəndimi yer üzündən siliblər. Mən bunun əvəzini necə çıxmalıyam? Hə, necə?

Ü m i d. Sən qisasını almısan, Kolya, elə olmasaydı, döşündə «Qızıl ulduz» ordeni parlayardımı? O medallar nəyə görə verilib sənə? Əlbəttə, şəxsi igidliyinə görə. Biz hamımız qisasımızı almışıq, indi isə çox yaxında olan qələbəni gözləyirik. Bu gözəl yaz bizə qələbə bayramı gətirəcək, nəhayət, qanımızla suvarılan canımız torpaq dincələcək, insanlarımız azad nəfəs alacaqlar.

Y a r a l ı ə s g ə r. Doktor düz deyir. Bu qələbə bizim hamımızındır, sənin, mənim, arxa cəbhədə qollarını çırmalayıb gecə-gündüz ağır zəhmətlərə qatlaşan ana-bacılarımızın, qız-gəlinlərimizin, böyükləri zavodlarda, tarlalarda əvəz eləyən yeniyetmələrimizin, bu qələbə azərbaycanlı neftçilərin, Sibir şaxtaçılarının, Özbəkistan pambıqçılarının qələbəsidir.

S a n i t a r. Bütün bunlar çox gözəldir, qardaşlar, amma bu saat Berlinə girən döyüşçülərimizin arasında olmaq üçün canımdan da keçərdim.

Ş e y d a b ə y. Can qardaş, nə deyir bu? Umud duxdur, bunun nəyi var, keçsin?

S a n i t a r. Nə dedin, Şeydabek? Doktor, o sizin dildə nəsə dedi.

Ü m i d. Şeydabəy, ayrı-seçkilik salma, inciyər. *(Sanitara)* Şeydabek deyir ki, bir gülməli lətifə danışmaq istəyirəm.

Y a ş l ı ə s g ə r. Əla, çoxdandır gülmürük. Davay, Şeydabek, danış, amma əməlli danış, tələsmə, sən rusca danışanda ruslardan başqa hamı başa düşür.

Ş e y d a b ə y *(Qəhqəhə çəkir).* O, o, o. Yaxşı, yaxşı... *(Gülür.)*

K o l y a. Yaxşı, Şeydabek, uzatma.

Ş e y d a b ə y. Aramızda erməni yoxdu ki?

Ü m i d. Allah eləməsin!

Ş e y d a b ə y. Onda danışım. Deməli, Rubençik adlı bir sarsaq erməni düşür bizimkilərin kampaniyasına. Yeyib-içirlər. Erməni Ruben görür ki, ona fikir verən yoxdu, hop eləyib çıxır ortaya ki, indi burda kimsə döyüləcək. Görür fikir verən yoxdur, lap bərkdən qışqırır ki, ara, eşitmirsiz, bu gün burda kimsə döyüləcək. Məclisin aparıcısı ona hörmətlə yanaşır, deyir, can qardaş, gəl şeytanın atından düş, kefimizə soğan doğrama, məclisi korrlama. Erməni Ruben lap qızışır, erməniliyindən əl çəkmir və yumruğunu stolun tən ortasına vurur: - «Ara, eşitmədiz ki, kimsə döyüləcək burda, bu gün?». Səbri daşan tamada tutur bunun yaxasından, sifətinə kuvalda boyda yumruğuynan necə ilişdirə varsa, Ruben leş kimi sərilir yerə. Yerdə çapalayan Ruben az sonra özünə gəlib deyir, ara, bu mən demədim, burda kimsə döyüləcək? *(Qəhqəhə çəkir.)* Gördünüz?

*Hamı Şeydabəyə qoşulub qəhqəhə çəkir.*

Ş e y d a b ə y. İndi Hitler anasını... ihı, ihı... xəbərdarlıq elədi ki, kimsə döyüləcək: dünyanı xaraba qoyacaq, Napolyondu- nədi ondan olacaq, ara yerdə anasını qoyadı baqaja... *(Daha bərk gülür. Ümumi qəhqəhə daha da güclənir).* Ümid, sən bilirsən, unun anası var? *(Daha bərkdən gülüşürlər.)* İndi nüvə sizindir. Qatso hanı, yoldaş Stalinin mahnısını oxusun.

Ü m i d. Qatsoya dəyməyin, ağrıları çoxdu, yuxu dərmanı vermişik, qoy dincəlsin.

Y a ş l ı  ə s g ə r. Bizim nəsil çox ağır sınaqlardan keçdi, inqilab, aclıq, sinfi mübarizələr... Nəfəs almamış, bu yandan da bu mübaribə, amma biz xoşbəxtik, şəxsən özümdən deyim ki, xoşbəxtəm, niyə, səbəb nədi, bilmirəm, amma içimdə bir ruh yüksəkliyi var.

Ü m i d. Bu hiss, o xoşbəxtlik qələbənin müjdəsidir, Batya, ilin də gözəl vaxtıdı. Yaz gələndə insanın da içində daim bir ruh yüksəkliyi, xoş ovqat çiçəkləyir, ruhu təzələnir. Siz hiss edirsiz yazın nəfəsini? İndi bizim yerlərdə ağaclar çiçəkləyib, dağlar, meşələr zümrüd rəngindədir. Quşlar oxuyur, səs-səsə verir, ona görə bizim yerlərin adamları oxumağı, musiqini çox sevirlər.

Y a ş l ı  ə s g ə r *(Zarafatla).* Buna biz necə inanaq, doktor?

Ü m i d *(Çaşır)*. Batya, siz mənim sözümə şübhə edirsiz?

S a n i t a r *(Gülür).* Yoldaş mayor, Batya demək istəyir ki, sübut eləyin, yəni oxuyun. Yaxşı bir Azərbaycan xalq mahnısını…

Ü m i d. Yox, onu bacarmayacağam.

Ş e y d a b ə y. Oxu, eloğlu, bir muğamat oxu.

S a n i t a r. Doktor, sizin oxumağınız çox təsirlidir, özüm eşitmişəm.

K o l y a. Mən də eşitmişəm. Oxu, doktor, sözümüzü yerə salma.

Ü m i d. Neynək, oxuyaram, muğam yox, bir xalq mahnısı oxuyaram. *(Oxuyur.)*

Dağlarda bir maral var,
Başında tirmə şal var,
Adı çıxmış yadımdan,
Üzündə qara xal var.
Dilbərim, dilbərim,
Gəl, gəl, ahu balası.
Uca dağlar arası...

Y a ş l ı ə s g ə r. Bu ki, çox qəmli mahnıdı…

K o l y a. Doğrudan da mənim gözlərim yaşardı. *(Gedir.)* Sözlər kövrək və təsirlidi.

Ü m i d. Əslində bu çox şən məhəbbət mahnısıdır, nədənsə mənim ifamda qəmli alınır... *(Yaşarmış gözlərini gizlədir.)*

Ş e y d a b ə y *(Umuda).* Can qardaş, indi mən uxuyum. Sən də çırtı çal uyna *(Oxuyur)* Xanda-xanda, benlə yesti xanda... *(Mahnını bitirməyib, qəhqəhə ilə gülür.)* Yaxşı, siz mənim başımı qatmayın, mən bir azdan yola düşməliyəm.

S a n i t a r. Heyf ki, gedirsən, Şeydabek, səninlə adam qəm-kədər bilməz. Haradır, səfərin?

Ş e y d a b ə y. Can qardaş, eta vayennaya tayna. Əlvida, qardaşlar, bir də gördün ta görüşmədik, nə bilmək olar? *(Bir-bir hamı ilə qucaqlaşır.)* Kolya hanı?

*Birdən «Ura» səsləri səhnəni bürüyür. «Qələbə!», «Ura!» səsləri getdikcə güclənir. Səhnədə aləm qarışır bir-birinə.*

K o l y a *(Qaça-qaça gəlir).* Qardaşlar, qələbə! Bratsı, pobeda! Hitler kaput!

*Hamı bir-birilə qucaqlaşır, öpüşür. Və elə bu şənlik fonunda Levitanın qələbə mətni səslənir. Hamı donub qulaq asır.*

*İşıq sönür.*

*İşıq yanır, kiçik pərdə örtülüdür. Fonoqrammadan müğənninin ifasında «Dilbərim» mahnısı ifa olunur. Elə bu mahnı üstündə kiçik pərdə qalxır. Umudgilin həyətidir. Dörd yaşlı uşaq öz-özünə oynayır.*

*Taxta avtomatdan atəş açır, durur-yıxılır. Bu, Nahiddir. O qaça-qaça səhnədən çıxır. Ümid əlində çamadan, çiynində çanta bu mənzərəni seyr edir. Həyət-bacaya, qapısı qıfıllı evə baxır.*

Ü m i d. Bu da mənim evim-eşiyim, xanimanım, suyu sovulmuş, dəni qurtarmış dəyirmanı xatırladır. Ziyadın yazdıqları doğru imiş. Şübhə eləyirdim, axıra kimi inanmırdım. *(Sifətini soyuq tər basır.)* Vəfasız çıxdın, Nahidə, etibarsız oldun. İşığımı keçirtdin, ləyaqətini axıracan qoruya bilmədin, sınağa dözmədin. Məni el arasında başıaşağı, gözükölgəli elədin. Bəs nə oldu, niyə Allah sənə düzgün yolu göstərmədi, niyə sənə qənim olmadı, etibarsız qadın?

N a h i d *(Qaça-qaça gəlir və kətildə oturmuş Ümidi görüb dayanır və nə fikirləşirsə, taxta avtomatı ona sarı tuşlayıb qışqırır)*. Əllər yuxarı!

Ü m i d *(Diksinib çönür və Nahidi görür).* Neyniyim, dedin?

N a h i d. Əllər yuxarı!

Ü m i d. Yaxşı *(əllərini qaldırır)*, sən deyən olsun. Bəs sonra?

N a h i d. Sən nemessən?

Ü m i d. Yox, mən nemesə oxşayıram?

N a h i d. Hayıf ki, nemes deyilsən.

Ü m i d. Yoxsa neynərdin?

N a h i d. Vurardım... Tı- tı- tı... Vurardım səni.

Ü m i d. Yaxşı, vurma məni, gördün ki, ta nemes deyiləm, yaxşı gəl tanış olaq.

N a h i d *(Yaxınlaşır)*. Sənin adın nədir?

Ü m i d. Əvvəl əl ver *(Əlini açır. Nahid əlini onun əlinə şappıldadır.)* Ay maşallah, sən nə güclü oğlansan? Lap pəhləvana oxşayırsan.

N a h i d. Babam da deyir, mən güclüyəm, atam kimi.

Ü m i d. Baban kimdi? Adı nədir?

N a h i d. Mirkərim baba.

Ü m i d. Mirkərim baba? Bəs atan kimdi, axı Mirkərim babanın oğlu yoxdu.

N a h i d *(Çaşır).* Bilmirəm.

Ü m i d. Mən də elə bildim sən igid, ağıllı oğlansan, atovun adını bilmirsən?

N a h i d. Bilirəm. Atamın adı Umuddur.

Ü m i d *(Sarsılır).* Umud? Doktor Umud?

N a h i d. Əsgərdi mənim atam, itkin düşüb. Deyirlər, gəlməyəcək.

Ü m i d. Onu kim dedi? Bilmirsən? Bəs sənin öz adın nədir?

N a h i d. Nahid.

Ü m i d. Nahid? Nahid... Sən... Umudun oğlu Nahidsən? *(Bərk-bərk qucaqlayır.)* Nahid, balam mənim, balam... *(Nahid ağlayır.)* Yox, ağlama, qorxma, mən özgə adam deyiləm, mən sənin atan Umudam. Mən itkin düşməmişəm, mən burdayam, sənin yanında *(Daha bərk qucaqlayır. Mirkərim ağa gəlir. Onları görüb ayaq saxlayır.)* Mən səni görəcəyimə inanmırdım, yox, inanmırdım, Nahid,

mən sənə görə vuruşurdum, mən sənə görə yaşayırdım, balam... *(Ağlayır.)*

M i r k ə r i m. Umud, bu sənsən? İlahi, kəreminə şükür! Sənə pənah gətirməyən necə bədbaxtdı. *(Dəsmal çıxardıb gözlərinə sıxır.)*

Ü m i d *(Nahiddən aralanıb Mirkərim ağa ilə qucaqlaşır).* Ağa! Ağa baba, mən evdəyəm, bu mənim... *(Nahidi göstərir.)* Ağa baba, bu mənim...

M i r k ə r i m. Utanma, Umud, de, «oğlum» deməkdən utanma, o sənin oğlun Nahiddir, o körpəyə «oğlum» deməkdən böyük xoşbəxtlik yoxdur, bala. Peyğəmbərimiz də balalarını çox sevərdi. *(Ağlayır.)* Qurbanı olduğum deyərdi ki, körpələrinizin başına tumar çəkmək səadətindən özünüzü məhrum eləməyin. O, beş il sənin yolunu gözləyib.

Ü m i d. Ağa baba, bağışla məni. *(Körpəni bir də qucaqlayır.)*

M i r k ə r i m. Şükürlər olsun sənə, pərvərdigara!.. (Nahidə) İndi get, sən oyna, başına dönüm, yoldaşlarına de ki, atan gəlib, Kəklik nənənə də de ki, Umud gəlib, sağ-salamat gəlib...

N a h i d *(Qışqırır).* Atam gəlib, atam, mənim atam gəlib. *(Qaça-qaça gedir.)*

*Bir anlıq sükut çökür. Ümid gözlərini silir. Mirkərim ağa da dodaqaltı nəsə pıçıldayır, oturur. Sözə başlamaqda çətinlik çəkirlər.*

M i r k ər i m. Maşallah olsun, Nahid çox fəhmli, fərasətli oğlandır, yaşından çox qabağa gedib. Parlaq sabahı var.

Ü m i d. Kənddə nə var, nə yox, ağa?

M i r k ə r i m. Kənddə kəndlik qalmayıb, bala, aclıq çəkib, xəstəliklər görüb, ölən ölüb, qırılan qırılıb, qalan da bax belə... Nə deyim, özün görəssən. Niyə özündən bir xəbər vermirdin, Umud, bu nə sirr idi?

Ü m i d. Yazırdım, ağa, cavab almırdım, sonra da elə şeylər eşitdim ki... Tüpürdüm hər şeyə, məni yaşadan o tifil oldu, bilirdim ki, onu sən saxlayırsan, bu ağır zamanda, ağa, ömrüm boyu sənə borcluyam.

M i r k ə r i m. Borc nədi, sən də, Nahidə də mənim balalarımsız, sizin balanız mənim də doğma nəvəmdi. Amma ki... Nə eşitmisən, necə eşitmisən? Kim sənə nə çatdırıb?

Ü m i d. Görünən dağa nə bələdçi, ağa baba? *(Evi göstərir.)* Niyə mənim qapım bağlıdır, hanı bu evin arvadı, hanı onun əhdi-peymanı, etibarı, hanı onun ləyaqəti, arvadlıq siması? Axı əsl qadının da bir kişi ləyaqəti olmalıydı…

M i r k ə r i m. Dayan, Umud, qızışma oğlum, günaha batma, şeytan aldatmasın səni. Nə baş veribsə, özün şahid olacaqsan.

Ü m i d. Bəs hanı o, ağa, frontdan qayıtmış ərini, uşağının atasını qarşılasın, başqa arvadlar ərlərini qarşılayan kimi niyə qabağıma çıxmır?

M i r k ə r i m. Onun yerini hazırda mən də bilmirəm, oğul. Bir axşam uşaq bizə gəldi. Nahidədən kağız gətirdi ki, Umud könüllü əsir düşüb, guya onu və uşağı sürgün eləyəcəklər, ona görə gözdən-qulaqdan uzaqlaşır.

Ü m i d. Bu nə deməkdir, ağa, bunu kim uydurub, mən Umud sıravi gedib mayor rütbəsində qayıtmışam, nə qədər ordenim, medalım... Ağa, mən bir dəfə yox, on dəfə, yüz dəfə ölümlə göz-gözə dayanmışam... Bu nə iyrənc uydurmadır? Kim deyib, hardan yayılıb bu? Bəlkə bu, o vəfasızın öz uydurmasıdır, əməllərinə haqq qazandırmasıdır?

M i r k ə r i m. Deməyinə, Ziyad deyib, mənə də demişdi, amma heç kəsə söyləməmişdim, demə Nahidəyə də xəlvətcə bildirib.

Ü m i d *(Təəccüblə).* Ziyad? Mənim dost, qardaş bildiyim adam?! O, belə qələt eləyə bilməz! *(Yerindən götürülür ki, getsin.)*

M i r k ə r i m. Dayan, Umud! Hara gedirsən? Ziyad daha yoxdu. Lələ köçüb, yurdu qalıb. Dayısı tutulandan sonra onu da göndərdilər davaya, o gedəndi, səsi yoxdu, ilim-ilim itib, heç qara kağızı da gəlməyib. Ziyad hardadı?

Ü m i d *(Süstləşmiş halda oturur).* O niyə belə iş tutub, ağa! Niyə?

M i r k ə r i m. Bilmirəm, oğul, bəlkə də o başıbatmış indi axirət dünyasındadı, cəzasını böyük Yaradan özü verəcək, sən hələ tələsmə, sakitləş.

Ü m i d. Siz niyə inandınız? Yəni Nahidə məni belə şərəfsiz bilirdi? Niyə inanırdı Ziyada, niyə səninlə məsləhətləşməyib?

M i r k ə r i m. Oğlum, Allahdan gizli deyil, səndən nə gizlədim, pis vaxtıydı, çuğullar çoxuydu, camaatda bir qorxu varıydı. Məni addımbaaddım izləyirdilər, səsimi çıxara bilmirdim. İnandın inanmadın, söz çıxandan sonra imdadımıza çatan, yetən olmayacaqdı. Buna Şura Hökuməti deyərlər. Umud, torban gərək həmişə çiynində olsun. Bu müharibə, dava, qələbə səni aldatmasın.

Ü m i d. Bəs indi o hardadır; yeganə balasını atıb getmiş o vəfasız hardadı?

M i r k ə r i m. Yenə deyirəm: Umud, qoy şeytan səni aldatmasın, Nahidə doğma qızım olmasa da, mənim halal çörəyimi yeyib, o, xəyanət yolunu tutmaz, o əslində özünü elə sənə, Nahidə qurban verib. Tez nəticə çıxarma, oğlum, dedim axı, səbrli ol.

Ü m i d. Neynək, ağa, səbrli olaram, mən elə uşaqlıqdan dərd çəkməyə öyrəncəliyəm. Ponta çarı Yevpator zəhərlənməkdən qorunmaq üçün hər gün az miqdarda zəhər udarmış. Mən də dərdə alışmışam, qram-qram, yeri gələndə batman-batman, bu dərdimin də öhdəsindən gələcəm.

M i r k ə r i m. İnşallah! Deyir, hərəkətul-ibər sari atun, harakətul iqbal batıatun. Yəni ki, bədbəxtliyin yürüşü yeyin, xoşbəxtliyinki astadır. Yaxşısını isə Allah bilir. *(Qalxır.).*Gedək, oğlum, kənd içiylə gedək bizə, qoy hamı görsün ki, Umud doxtur, nəmxuda, mayor olub gəlib kəndinə, elinə-obasına.

Ü m i d. Gedək, ağa, gedək, biz istəsək də, istəməsək də yaşamalıyıq. Həyat yenidən başlayır.

M i r k ə r i m. Ambulatorun da yerindədi, düzdü, qapısı bağlıdı, pəncərəsi-şüşəsi qırılıb-tökülüb, amma daş-divarı yerindədi, başlayarsan işə. Yəqin orda da sənətini işlətmisən?

Ü m i d. Elədi, ağa, indi mən əməlli-başlı cərraham, əlimdən yüzlərlə, minlərlə yaralı keçib, amma kənddə qala bilmərəm, rayon mərkəzində, şəhər xəstəxanasında iş təklif eləyiblər, ora gedəcəm, Nahidi də aparacam özümlə.

M i r k ə r i m. Allah işini avand eləsin, Umud, elə ora da bizimdi, arada beş-altı verst yol var. Gedək, bala, çıxaq kəndə. Sənin üzün hamının yanında ağdı.

Ü m i d. Buyur, ağa. Yol böyüyündü. *(Gedirlər.)*

*İşıq yananda kiçik bağlı pərdə görünür. Ümid əlində həkim çantası pərdənin qabağından keçib gedir. Pərdə qalxır. Səhnənin dibində palatadır. Çarpayıda Nahidə uzanıb, xeyli dəyişib, amma gözəlliyini o qədər də itirməyib. Tibb bacısı onun nəbzini yoxlayır, sonra qoluna iynə vurur.*

T i b b  b a c ı s ı. Qorxma, hər şey yaxşı olacaq, bu iynə ağrıları azaldacaq. Həkim də indi gəlib çıxar, oğlu birinci sinifə gedir, anasız uşaqdı, yola salmağa gedib, indi qayıdacaq. Çox insaflı adamdı, əlləri də qızıldır, qızıl. *(Gedə-gedə)* Şübhən olmasın.

*İşıq səhnənin ön tərəfinə düşür. Bura baş həkimin otağıdır. Ümid gəlir, çantasını qoyub ağ xalat geyinir.*

Ü m i d. İllər atlıdır. Nahid də məktəbli oldu. Birinci sinif şagirdidi.

T i b b  b a c ı s ı *(Gəlir).* Ümid həkim, salam, sabahınız xeyir!

Ü m i d. Sabahın xeyir, Gülər xanım, necəsən? Mənə Ümid həkim deyən bir sənsən, keçmişdə kənddə hamı məni Umud çağırardı.

T i b b  b a c ı s ı *(Utanır).* İstəsəniz, mən də Umud deyərəm.

Ü m i d. Hə, hə, elə Umud de. Nə var, həyəcanlısan?

T i b b  b a c ı s ı. Həkim, bir xəstə gətiriblər, halı çox pisdir, huşu gah itir, gah qayıdır. Onda qəribə ruh düşkünlüyü var. Heç kəsi də yoxdur.

Ü m i d. Həkimə ta ayrı nə deyirlər ki?

T i b b  b a c ı s ı. Təbrik eləyirəm, oğlunuz məktəbə gedib, qədəmləri mübarək!

Ü m i d. Hə, bax bu yaxşıdır, çox sağ ol. Maşallah, çox ürəkli uşaqdı, sinfə birinci girdi. Yaxşı, dərdi nədir sən bilən, o kimsəsiz xəstənin?

T i b b  b a c ı s ı. Mədə xorasına oxşayır, bərk ağrılar var. Gətirəndə mədəsini tutmuşdu, amma dözümlü gəlindi, heç səsini çıxartmırdı.

Ü m i d. Yaxşı, gedək baxaq, bəlkə heç cərrahlıq iş yoxdu?

*Gedirlər, palata işıqlanır. Ümid xəstəyə yaxınlaşır və Nahidəni görüb diksinir.*

Ü m i d. Ola bilməz! Bu, sənsən?

N a h i d ə *(Gözüyumulu pıçıldayır).* Umud...

T i b b  b a c ı s ı *(Heyrətlə).* Doktor, o «Umud» dedi. O, sizi görmür, amma Umud dedi.

Ü m i d *(Geriləyir və tez özünü ələ alır).* O yazıq sayıqlayır, yəqin Allahdan pənah, ümid diləyir.

T i b b  b a c ı s ı. Halı pisdir. Huşu özündə deyil.

Ü m i d. Ağrıkəsici bir iynə də vur, iki doza... Nəsə mənim də halım pis oldu, özümü yaxşı hiss eləmirəm, kabinetdəyəm, Gülər.

T i b b  b a c ı s ı. Həkim, rənginiz də ağardı, xəstənin vəziyyəti sizə pis təsir elədi, bəlkə...

Ü m i d. Narahat olma, sən onu gözdən qoyma, bir azdan qayıdacam. *(Gedir.)*

*Ümid işıqlanan kabinetə keçir. Həyəcanla var-gəl edir. Əllərini ovuşdurur.*

Ü m i d. Niyə həmişə qəribə işlər mənim başıma gəlir? Mən artıq onu ürəyimdə dəfn eləmək istəyirdim, buna nail olduğum vaxtda təzədən qarşıma çıxdı? Özü də belə bir gündə, Nahidin məktəbə ayaq açdığı birinci gündə. Bəlkə bu Allahın işarəsidi? Bəlkə onun

heç bir günahı yoxdu? *(Əllərini ovuşdura-ovuşdura var-gəl eləyir.)* Bəlkə böhtanlara görə günah yiyəsi elə özüməm? Neyləməliyəm, İlahi? O, çox dəyişib, xoşbəxt yaşayan qadına oxşamır. Bəlkə Ziyad o əsirlik məsələsini uydurduğu kimi... *(Fikrə gedir.)*

Z i y a d *(Qeybdən səsi eşidilir).* «...Qardaşım, Umud, o vəfasız çıxdı, körpə uşağını - sənin oğlunu atıb kiməsə qoşulub getdi...».

Ü m i d. Bəs indi... Mənə xəyanət eləyən, ləyaqətini qorumayan qadını həyata qaytarım, sağaldım ki, sabah qəhqəhə çəkib gülsün mənə? Yox, o... Amma «Umud» dedi, açıqca Umud dedi, mənim adımı çəkdi... Burda nəsə sirr var…

N a h i d ə *(Səsi eşidilir).* Yaxşı adın var, Umud... Sən mənim umudum, pənahımsan, sən mənim yellər yıxmaz, sellər aparmaz, odlar yandırmaz arxamsan. Sənsiz mənim nə günüm, nə güzəranım? Sənsiz özümü sellərə ataram, Umud, odlarda kül eləyərəm, özgə kimsəyə baxmamaq üçün gözlərimi ovub çıxararam. Mənim dualarım sənin adınla başlayır, adınla qurtarır, Umud. Dua həmişə öz yiyəsini, ünvanını tapır. Mənim dualarım da harda olsan, səni tapacaq, səni qəfil gülllədən, ölümdən, şərdən qoruyacaq, inşallah. Böyük Allah bilir ki, mən yetimin pənahı, Umudu sənsən...

Ü m i d. Yalandır!.. Yalandır!.. Sən məni gözükölgəli elədin, sən mənim ləyaqətimi tapdaladın, məni başıaşağı elədin *(Gözlərinin yaşını hirslə silir.)* Amma mən səni sağaldacam, bütün pisliklərinin acığına səni sağaldacam, mütləq sağaldacam və sənin vəfasız, etibarsız üzünə, gözlərinə baxacam... *(Gedir.)* Və əgər gözlər

aynadırsa, o gözlərdən xəyanəti də oxuyacam, məhəbbəti də, mənə olan sədaqəti də, ləyaqəti də.

*Mirkərim ağa gəlir. Ətrafa baxıb bir növ oturmağa yer axtarır.*

M i r k ə r i m. Ya Allah! *(Oturur.)* Hə, Umud gələni buralar abıra düşüb. Nəmxuda işi də yaxşıdı, deyir gecədən sonra gündüzün gəlməyi labüddür. Pisdən sonra yaxşının gəlməyi zərurətdəndir. Bir göz ağlayanda o biri gülür. Hikmət də elə bundadır.

Ü m i d *(Gəlir).* Ağa baba, xoş gəlmisən, nə yaxşı, həmişə sən gələsən, xeyirdimi?

M i r k ə r i m. Şərə-şeytana lənət. Hər şey xeyirədir, oğlum, əhd eləmişdim ki, Nahid balamın ayağı ilk dəfə məktəb həyətinə dəyəndə qurban kəsəcəm. Əhdimə əməl eləməyə gəlmişəm. Özüm bəslədiyim bir qoç qapınızdadır. Gəldim ki, səni də götürüb gedək evə. Yəqin uşaq da bir azdan qayıdar məktəbdən.

Ü m i d. Çox sağ ol, ağa baba, qəribə gündür bu gün.

M i r k ə r i m. Nə qəribəliyi var, açıq danış. Müəmmalı danışırsan, bala.

T i b b  b a c ı s ı *(Gəlir).* Salam! Doktor, nə qərara gəldiniz, hazırlayaq xəstəni?

Ü m i d. Yox, Gülər, operasiyaya hələlik ehtiyac yoxdur. Bir neçə gün konservativ müalicə eləyək, sonra baxarıq, bəlkə də əməliyyata heç ehtiyac olmadı.

T i b b  b a c ı s ı. Sağ olun, doktor! Nə yaxşı, bədbaxtın heç kəsi yoxdur.

Ü m i d. Sistem elədiz? Birini də bir saatdan sonra eləyərsiz, doktor Hüseynə tapşırmışam, məşğul olacaq.

T i b b  b a c ı s ı. Baş üstə, doktor,  necə lazımdı, eləyərik.

Ü m i d. Özünə gəlib, huşu qayıdıb üstünə?

T i b b  b a c ı s ı. Yaxşılaşır, indicə gözlərini açıb su istədi.

Ü m i d. Çox yaxşı, indi mən gedirəm, qonağım var, çatdırsam, axşam gəlib dəyərəm.

Q a d ı n *(Gəlir).* Hanı doxdur, hanı o qadasın aldığım Umud doktor? *(Mirkərim ağanın üstünə yeriyir.)* Sənsənmi, ay ağsaqqal, doxdursanmı?

M i r k ə r i m. Höysələli ol, ay arvad! Səbr hu!

Q a d ı n. Bu nə deyir. (*Şəfqət bacısına)* Niyə dilənmirsən, a bala? Hanı Umud doxdur? *(Umudu elə bil indicə görür.)* Boy, doxdur, canım qurbandı, saa, ölüm əyaxlarıyın altında.

Ü m i d. Elə demə xala, sözünü de. Mən getməliyəm.

Q a d ı n. Gedirəm nədi, ə? O binəva gəlini yarmısan, indi də gedirsən?

T i b b  b a c ı s ı. Xala, dedim axı, operasiya eləməyib həkim, ehtiyac olmadı, dava-dərmanla sağaldacaq.

Q a d ı n. Nə dediyindi, ay qız?

T i b b  b a c ı s ı. Vəziyyəti yaxşılaşır.

Q a d ı n. Buy, Allah səni xoşbəxt eləsin, üzün ağ olsun! *(Oturmağa yer axtarır.)* Bir tabretqa ver dayna, qırıldı qıçlarım. *(Ümidin yerində oturur.)*

T i b b  b a c ı s ı. Doktor, mən gedirəm. *(Gedir.)*

Ü m i d. Xala, de görüm nə istəyirsən, tanıyırsan o xəstəni? Nəyindi?

Q a d ı n. Boy, tanıyırsan da sözdü? Neçə vaxtdı evimdə qalır. Heç yadımda dəyil ki, nətəər gəldi çıxdı bizə, amma bir gəlindi ki, ta nə deyim, dilsiz-ağızsız, heç kimə demirəm, yazıq qorxur, sizə deyirəm, namaz da qılır. Tez-tez də ağlayır, «dua» eləyəndə. Nəsə dərdi var, açıf demir, amma nə gəlindi, namısdı-qiyrətdi.

M i r k ə r i m. Deyirsən, namaz qılır?

Q a d ı n. Nəyi pisdi ki? Qılanda noolar?

M i r k ə r i m. Eşidirsən, Umud? Adı nədi o gəlinin?

Q a d ı n. Adı? Boy... Adı Hicrandı.

M i r k ə r i m *(Məyus)*. Hicran... Ayrılıq deməkdi, həsrət. Umud, kimdi ki, o xəstə?

Q a d ı n. Hamma nətəər gözəliydi canıyanmış, gözəl yox ey, mələyidi, mələk, indi tərk oluf, dərd-qəm əydi yazığı, axırda da belə. O qədər ki, o dərd çəkirdi, bilirdim axırı balnısalıxdı.

Ş e y d a b ə y *(Səs-küylə gəlir).* Umud, sənsən, duxdur Axundov, can qardaş!

Q a d ı n *(Diksinir).* Bissmillah, bu nədi? Bu kimdi?

Ş e y d a b ə y. Tanımadın? Şeydabek Osmanbekovu tanumadun?

Ü m i d. Şeyda bek! *(Qucaqlaşırlar.)* Osmanbekov, sən salamatsan? Bəs dedilər... Ağa, bu mənim cəbhə yoldaşımdır. Əslən qafqazlıdır. Bığ qoyub deyə o saat tanımadım.

M i r k ə r i m. Çox gözəl, çox pakizə.

Ş e y d a b ə y *(Mirkərim ağanı ehtirasla qucaqlayır).* Can baba, xuş gördük... *(Öpür.)*

M i r k ə r i m. Allahu əkbər!

Ş e y d a b ə y *(Mirkərim ağanı buraxıb qadını qucaqlayır.)* Can nənə, bir nağıl de... *(O üzündən, bu üzündən öpür.)* Duxdurun anasını mənim də anamdır.

Q a d ı n. Vay, vay... nəfəsim kəsildi, bu kimdi belə?

Ü m i d. Şeydabek, sən hara, bura hara? Gün hayandan çıxıb?

Ş e y d a b ə y. Can qardaş, sənin yanında üzü qarayam...

Ü m i d. Xala, sən arxayın ol, get hər şey yaxşı olacaq.

Q a d ı n. Hara gedirəm, a bala, oturmuşam dayna.

M i r k ə r i m. Allahu əkbər!

Ş e y d a b ə y. Can qardaş, karoçe, deyim ki, sizdən ayrılandan sunra getdim yenə nemeslərin atalarını ağlatdım, xala da bağışlasın, analarını sevindirdim. *(Qəhqəhə çəkir.)* Qələbə də olsa, iş çuxuydu.

*Ümid gülür. Mirkərim ağa gülümsəyir. Qadın qəhqəhə çəkir.*

M i r k ə r i m *(Qəhqəhə ilə gülən arvada tənəylə baxır)*. Allahu əkbər!

Ş e y d a b ə y. Karoçe, uralarda sənin bir yerrinlə tanış uldum, sənin həmkəndlinlə.

Ü m i d. Mənim həmkəndlimlə? Adı nəydi?

Ş e y d a b ə y. Ziyad... Qəribov.

M i r k ə r i m. Ziyad? Qəribov?

Ş e y d a b ə y. Tak toçno!

Ü m i d. Sonra, Şeyda, sonra, harda, necə? Bir danış, görüm!

Ş e y d a b ə y. Can qardaş. Pulşa sərhəddini keçəndə bədbaxt oğlu möhkəm yaralanıb, göndəriblər geriyə.

Q a d ı n. Anası ölsün, mənim gədəmin də qara kağızı gəldi... *(Ağlayır)*

Ş e y d a b ə y. Tuxta, ana, sənin Umud kimi duxdur uğlan var. Dedi, Şeydabek mən ölürəm, bu məktubu çatdırarsan üstündə yazılan ünvana. Can qardaş, baxdım ki, yazılıb çatacaq Axundov Umuda. Adres-zad da, can qardaş,  necə lazımdı. Qoydum cibimə, dedim çatdıraram, arxayın ul!

Ü m i d. Bəs sonra?

Ş e y d a b ə y. Ta nə sonra, Ziyad yazıq üldü.

M i r k ə r i m. Allah rəhmət eləsin!

Ş e y d a b ə y. Mən də qayıtdım Mahaçqalaya, eşitdim ki, bir tabasaranlı bacıma sataşıb, sevindirdim anasını, bıçaqladım, bir az

yatdım, frontovik ulduğuma görə tez buraxdılar. İndi də ki, burdayam. Bu da məktub. *(Qoltuq cibindən çıxarıb verir.)*. Allah kəssin, tələsik işi! *(Qəhqəhə çəkib gülür.)* Bunu poçtla da göndərə bilərdim, amma dedim, iki ildən sonra belə məktubu aparıb üzüm versəm, yaxşıdı, həm də frantovoy dustumla görüşsəm, pis ulmaz. Biz beləyik, can qardaş. Dağlı gec gələr, güclü gələr. *(Gülür.)*

Q a d ı n. Oxu görək, nə yazıf, ə, rəhmətlik?

M i r k ə r i m. Allahu əkbər!

Ü m i d *(Üçqat bükülmüş əsgər məktubunu açır).* Onun xəttidir.

Ziyad *(İşıq üzünə düşür).* «Əziz dostum, Umud, bilmirəm , bu məktub sənə çatacaq, ya çatmayacaq, amma yazıram, Allah kərimdi. Mirkərim ağa deyərdi ki, ölümayağı adam günahlarını boynuna alıb tövbə eliyərsə, Allah keçər günahından, bağışlayar onu. Sənə bir sirrimi açım: mən çoxdan sevirdim Nahidəni, səndən də qabaq, ancaq o, səni seçdi, məni bəyənmədi. Mən sakit ola bilmirdim, fürsət düşdükcə onu ələ keçirməyə çalışırdım, o isə məni rədd edir, hətta təhqir eləyirdi. Sən cəbhəyə gedəndə sevindim, dedim, nəhayət, çataram istəyimə, qovuşaram sevgimə, olmadı. O, ləyaqətini, ismətini üstün tutdu, tapdamadı. Sifətimə vurduğu şapalaq hələ də yandırır üzümü, aldığım güllə yarasından da məni bərk incidir. Orada mən hirsimdən uydurdum ki, sən könüllü almanlar tərəfə keçmisən, qorxutdum onu, bu kələyim də kömək eləmədi, əlinə baltanı götürdü, cumdu üstümə. Bu yalanım da məni istəyimə qovuşdurmadı. Əvəzində Nahidə mənim əlimdən başını

götürüb qaçdı, qorxdu ki, onunla birgə uşağı da sürgünə göndərərlər. Niyə yazıram bunları, bilmirəm, ölüm ayağında hər bir insan üzünü Allaha tərəf çevirir, ona pənah aparır. Mən bu günahla ölmək, onun dərgahına suçlu getmək istəmirəm. Əgər bacarsan, bağışla məni, mən səni həqiqətən çox istəyirdim, amma nəfsimlə bacara bilmirdim. Bir Allah şahiddir ki, Nahidə təmizdi, güzgü kimi ləkəsizdi, o sənə həmişə sədaqətli olub. Əgər onu görsən, inanıram ki, görəcəksən, siz xoşbəxt olacaqsınız, qoy o da bacarırsa, məni bağışlasın. Qıymayın ki, qərib torpaqda qəbrim od tutub yansın. Əlvida, dostun Ziyad». *(Ziyadın üzünə düşən işıq sönür.)*

*Səhnə işıqlanır.*

Ü m i d *(Hirsli və təlaşlı).* Bədbəxt! Bədbəxt oğlu! *(Göz yaşlarını silir.)*

M i r k ə r i m. Umud, sən ağlayırsan?

Ü m i d. Ağa, bu həm sevinc, həm də qəm yaşlarıdır. Xoşbəxt insanlar bir-birinə bənzəyir, bədbəxt insanlarsa hərəsi bir cürə bədbəxtdilər.

Q a d ı n. Bəs məni demirsən, bəs o yazıq gəlini demirsən.

Ş e y d a b ə y. Can qardaş, bilsəydim ki, bu bir parça kağız səni ağladacaq, gətirməzdim.

Ü m i d. Yox, yox, Şeydabek, çox sağ ol, bu məktub mənim gözümü açdı, bütün həyatımı dəyişdi, məni ayıltdı. Mən ən qiymətli

adamımı itirə bilərdim. İndi hər şey mənə gün kimi aydındır, çox sağ ol, dost! Ağa, gedək o xəstə qadının yanına.

M i r k ə r i m. Oğlum, Umud, bəlkə mən...

Ü m i d. Ağa baba, sən onu görməlisən. Hə, hə, hökmən görməlisən.

Q a d ı n. Allah səni Tur dağına göndərsin, doxdur, sən ki, belə nəcib insansan, ta nə deyim? Vallah, billah, söz tapmıram.

Ü m i d. Şeydabek, sən bir az gözlə, indi qayıdıram. Gedək, ağa...

*Getmək istəyirlər. Zəif addımlarla, xəstə geyimində Nahidə gəlir.*

Ü m i d. Nahidə! *(Üstünə yüyürür.)*

N a h i d ə. Umud! *(Qucağına yıxılır.)*

M i r k ə r i m. Pərvərdigara, sənin nə hikmətlərin varmış? Şükür olsun, kəreminə!

Q a d ı n. Nahidə niyə, a bala, o Hicrandı, mənim qızımdı.

Ş e y d a b ə y. Ağa, bu nə deməkdir, can qardaş?

M i r k ə r i m. Gəlin biz çıxaq, sonra başa salaram sizi, tələsməyin. Onların bir-birinə deməli sözü çoxdur. Beş ildir görüşmürlər.

Q a d ı n. A kişi, o qız mənimdir, adı Hicrandı. Nahidə hardan peyda oldu?

M i r k ə r i m. Allahu əkbər! Ey övrət, səbr hu! Səbr imandandır. Gedək, mən sənə hər şeyi başa salaram, hövsələni bas. Uşaq döyülsən, ha?

*Mirkərim, Şeydabəy və qadın gedirlər.*

Ü m i d. Nahidə, mənim xallı maralım, bağışla məni. Günah yiyəsi özüməm.

N a h i d ə. Umud... Umud, sən burdasan, səni buraxıblar?.. Gözüm məni aldatmır ki? Bəlkə ağlım çaşıb?

Ü m i d. Mən hər şeyi bilirəm, Nahidə, hər şeydən xəbərim var, Mirkərim ağa da bilir, o da... *(Dönüb baxır və tək olduqlarını görüb Nahidəni qucaqlayır.)* Mən səni sevirəm, indi həmişəkindən də çox sevirəm.

N a h i d ə *(Ondan aralanır.)* Sevirsən? Məni? Axı mən indi kiməm,  xəstə, solğun, kimsəsiz... *(Ağlayır.)*

Ü m i d. Sən indi daha gözəlsən, daha məlahətlisən, sevdalı mələyim... *(Ehtirasla Nahidəni öpür.)*

N a h i d ə *(Çaşqın vəziyyətdə*). Allah, bu nə gündü, məni öldür. Burax, burax, Umud, gələn olar. Özünü ələ al...

*Nahid çiynində məktəbli çantası, sevinə-sevinə gəlir.*

N a h i d. Ata, mən gəldim, mən gəldim.

N a h i d ə. Nahid, oğlum, balam... *(Hönkürür.)*

N a h i d *(Əvvəl duruxur)*. Ana! Ana... *(Üstünə yüyürür.)*

*Nahidə uşağı qucaqlayır, üz-gözünü, boynunu yalayır.*

N a h i d ə. Sən məni tanıdın? Tanıdın bədbəxt ananı?

Ü m i d. Uşağın qəlbini qırma, niyə bədbəxt olursan, Nahidə?

N a h i d. Tanıdım... O saat tanıdım.

*Ümid onların hər ikisini qucaqlayır.*

Ü m i d. İlahi, bu qədər dərd-bəladan sonra sən mənə xoşbəxtlik verdin. Mirkərim ağa, necə deyərdi, Nahidə? Hər bir kədərin sonu xoş gələcəkdi. Haqq nazilir, amma üzülmür, axırda qalib gəlir, necə ki, faşist təcavüzü məğlubiyyətlə, böyük bir ölkənin iflası ilə qurtardı. Onların məğlubiyyəti bizə qələbə gətirdi. Bu qələbdə həm də mənim bu kiçik ailəmin qələbə müjdəsi var.

*Kiçik pərdə enir.*

# EPİLOQ

*Qələbə marşı səslənir. Bütün iştirakçılar kiçik pərdənin önündə sıralanır. Musiqi əsas fona çevrilir. Heydər Əliyevin iri portreti işıqlanır. Fonoqramdan mətn gedir.*

*Mətn. «İkinci Dünya Müharibəsinin, Böyük Vətən Müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur».*

*Heydər ƏLİYEV*

*İşıq sönür. «Dilbərim» mahnısı fonunda. Mahnı yarımçıq ifa olunur.*

*Pərdə*